Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

# Qarabağ konfliktinin hüquqi və siyasi aspektlərinin geopolitik təhlili

Doktor Həsən Kamran Dəstcerdi[1], Doktor Mahmud Vasiq[2], Seyid Məhəmməd İsanejad Atəşgah[3], Fatimə Bəşiriyan[4], Zahid Mərdani[5]

**Abstrakt**

Qarabağ münaqişəsi ərazi ,etnik və dini bir münaqişə olaraq zaman keçdikcə onun dairə və nəticələri genişlənməkdə olmuşdur .Hazırkı təhqiqdə Qarabağ münaqişəsinin siyasi və hüquqi aspektlərinin gepolitik təhlili aparılmışdır .Bu münaqişə iki siyasi və hüquqi aspektdə tamamilə iki ayrı proses yolu keçmişdir .Hüquqi aspektdə ümumi beynəlxalq və humanitar hüquqların müddəalarını izləyən ,daxili və beynəlxalq münaqişələrə hakim hüquqi prosesdə Qarabağ münaqişəsi Ermənistanın Azərbaycan Respublikasının hakimiyyətini və ərazi bütövlüyünü pozan və beynəlxalq cinayətlərə mürtəkib olduğu bir münaqişədir .Xocalı soyqrımı və Kəlbəcər hadisələri ermənilərin bu münaqişədə beynəlxalq səviyyədə ən tanınmış cinayətlərindən hesab edilir .Digər bir tərəfdən bu münaqişənin siyasi aspektində ermənilərin tərəfsiz və qeyri-obyektiv mövzularının şahidiyik ki ,bu da Rusiyanın Azərbaycan Respublikasına qarşı erməniləri hərətərəfli himayəsi ilədir .Bu münaqişədə geopolitik amil böhran üçün zəminə yaratmaq ,onu uzatmaq ,sülh yolu ilə həll edilməsinə mane olmaq və tərəflərə uyğun olmayan ölçülər götürməkdir . Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dünya ölkələrinin ٢١ illik çalışmaları indiyə kimi heç bir nəticə verməmişdir . Bu təhqiqdə təsviri təhlil təhqiq metodundan istifadə etməklə araşdırma aparılır və“ Qarabağ münaqişəsinin siyasi və hüquqi aspektləri bir-birinə uyğundurmu ”?sualına cavab verməyə çalışılır . Təhqiqin nəticələri göstrir ki ,beynəlxalq və humanitar hüquq baxışlarından Qarabağ ,Azərbaycan Respublikasına aiddir və erməni tərəfi Azərbaycan Respublikasının hakimiyyətini və ərazi bütövlüyünü pozmuşdur .Bundan əlavə ,Qarabağ münaqişəsinin həll olunmamasının ən önəmli dəlili onun siyasi və hüquqi aspektlərinin bir-birilə uyğun olmamasıdır və beynəlxalq səviyyədə münaqişənin həll edilməsində əsas şərt olan təcavüzkar tərəfin tanınması faktiki olaraq yekdil surətdə baş tutmamışdır.

***Açar sözlər :****Qarabağ münaqişəsi ,geopolitik ,hüquqi aspekt ,siyasi aspekt ,təcavüzkar tərəf*

## ١. Giriş

Hələ qədim zamanlardan tarixçilər, coğrafiyaçılar və ümumi camaat Qarabağa "Cənnətül-cinan" deyirdilər. Qarabağ, çox sərgüzəştli və macaralarla dolu bir yerdir, istər çarlar zamanı, istərsə də ondan sonra kommunistlərin yetmiş illik hakimiyyəti dövründə böyük əhəmiyyət və mövqeyə malik olub. Qarabağ konfliktinin aspektlərini bu regionun çox qədim tarixində, onun durumunda, təbii coğrafi özəlliklərində, ermənilərin Qafqaz sakinləri ilə xüsusi münasibətlərində və Rusiyanın tamahlarında aramaq olar.

Qarabağ Vilayəti ١٩٢٣-cü il ٧ iyunda təşkil olunub və onun ərazisi ٤٣٨٨ kvadrat kilometr olaraq Azərbaycan Respublikasının ümumi ərazisinin ٥,١ faizini təşkil edir. Qarabağ, Azərbaycan Respublikasının qərb ərazilərinin daxilində yerləşir və nəticədə Ermənistanla kiçik də olsa belə ortaq quru, yaxud su sərhəddi yoxdur. Buranın Ermənistan sərhəddinə ən yaxın nöqtəsi yeddi kilometr məsafədə olan Laçın keçid yoludur.

---

١. Tehran Universitetinin coğrafiya kafedrasının geopolitika üzrə dosenti.
٢. Tehran Universitetinin coğrafiya kafedrasının geopolitika üzrə dosenti.
٣. Geopolitika üzrə magistr ("Ohdedari mukatibat" kitabının müəllifi), S.M.I.٥٦٣١@gmail.com
٤. Coğrafiya üzrə magistr və Cənubi Qafqaz regionu üzrə təhqiqatçı.
٥. Geopolitika üzrə magistr.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Qarabağ münaqişəsinin köklərini Türkmənçay müqaviləsinin bağlanmasından sonrakı dövrlərdə araşdırmaq lazımdır. (Bəyat, ١٣٧٢:١٤.)

Qarabağ, kommunistlərin hakimiyyəti dövründə çoxlu dəyişiklliklər təcrübə etdi, Rusiyanın təfriqəçillik və hökmranlıq siyasətinin qurbanı olaraq onun dağlıq ərazisi muxtar vilayət şəklini aldı. Baxmayaraq ki, cəmiyyət tərkibi, çox aşkar coğrafi və tarixi kimliyinə görə Qarabağı Azərbaycandan ayırmaq cəhdləri heç vaxt gerçəkləşmədi. ١٩٢٣-cü ildə ermənilər rusların təhrik və dəstəyi ilə ilk dəfə olaraq Qarabağ və Azərbaycanın digər əraziləri, Gürcüstan və Dağıstana qarşı hakimiyyət iddiaları qaldırdılar. (Aydın, ١٣٨٠:٦٤.)

Kommunistlərin hakimiyyəti dövründə Qarabağ məsələsi çox da büruz edə bilmədi və Moskvanın tələblərinə uyğun olaraq mövcud durum tam həll olunmamış qaldı. Sovet İttifaqının sonuncu başçısı Mixayıl Qorbaçovun dövründə siyasi-iqtisadi islahatlar gündəmə gəldikdən sonra Qarabağ böhranı da baş qaldırdı və yatmış kinlər yenidən büruz etməyə macal tapdı. (Zare Şahmərsi, ١٣٨٩: ١.) Çox çəkmədi ki, Qarabağda azərbaycanlılarla ermənilər arasındakı gərginlik tam miqyaslı bir müharibəyə çevrildi və Ermənistan ordusu xaricdən dəstək almaqla Azərbaycan ərazisində soyqırım törətdi. ١٩٨٨-ci ildən bərkiməyə başlayan bu münaqişə sovetlər birliyinin dağılması və qarşı-qarşıya dayanmış hər iki tərəfin müstəqillik əldə etməsi ilə ١٩٩١-ci ildə artıq beynəlxalq bir münaqişəyə döndü. Bu prosesin davamında ermənilər Qarabağ və onun ətraf ərazilərini işğal etdilər.

Sovetlər birliyinin dağılması ilə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları iki ölkə arasında silahlı münaqişəyə gətirib çıxartdı. ١٩٩٢-ci ildə Ermənistan Azərbaycana qarşı geniş miqyaslı əməliyyatlara başladı. Ermənistanın bu hərəkəti beynəlxalq hüquq və qayda-qanunların, beynəlxalq humanitar hüquqların ciddi pozulmasına və çoxlu sayda azərbaycanlının həlak olması və yaralanmasına səbəb oldu. Bu müharibə Qarabağ və ona bitişik rayonlar daxil olmaqla Azərbaycanın ٢٠٪ ərazilərinin işğal olması ilə və ١ milyondan yuxarı insanın öz ata-baba yurdlarını tərk edərək köçkün düşmələri ilə nəticələndi.

١٩٨٨-١٩٩٤-cü illər arasında baş verən münaqişələr zamanı Qarabağın yerli azərbaycanlı əhalisi və müsəlmanlar ermənilər tərəfindən ya öldürüldü, ya da silah gücünə öz ata-baba yurdlarından qovuldular. Bu müharibə boyunca ermənilər bir neçə dəfə soyqırıma əl atdılar və Xocalı[٦] şəhərində vəhşi və zalımcasına törədilən soyqırım erməni daşnaklarının qeyri-insani hərəkətlərinin acılı nümunələrindən biridir[٧]. (Əmir Əhmədiyan, ١٣٨٢:٩٥.)

Bu araşdırma nəzəri-tətbiqi tədqiqatlar sırasındadır və tədqiqdə deduktiv yanaşma, fikri yaradıcılıq və qabaqkı biliyə əsaslanmaqla təhlilin ilkin mövzu və məlumatları kitabxana metodu ilə toplanır, məntiqi təhlil, induktiv faktlar metodundan istifadə etməklə yeni nəzəri təklif və mülahizələr yaradılaraq irəli sürülür. Bu mülahizə və müddəalar eksperimental tədqiqatlar üçün yeni bazalar ola bilər. (Hafizniya, ١٣٨٩:٥٩.)

---

٦. Xocalı, Əsgəran rayonu bazasında yaradılmışdır və Xankəndi şəhərinin ١٤ km-liyində, Qarabağ silsiləsində yerləşir.

٧. Khojali Genocide: (Xocali Soygirimi)

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Bu tədqiqin material və mahiyyətinə (sənədlər) diqqət etməklə tədqiqin hədəflərinə çatmaq məqsədilə məzmun təhlili və təsviri-təhlil metodundan istifadə olunur.

Həmçinin, tədqiqdə cəhd edilir ki, Qarabağ konfliktinin hüquqi və siyasi aspektləri geopolitik təhlil çərçivəsində açıqlansın. Habelə, tədqiq: "Qarabağ konfliktinin hüquqi və siyasi aspektləri bir-birilə uyğun gəlirmi?"- əsas suala cavab verməyə çalışır.

## ٢. Təhqiqin məlumatı

### ٢,١. Münaqişəyə baxış

١٨٠٥-ci ildə Qarabağ xanı və Rusiya İmperatorluğu arasında Kürəkçay müqaviləsinin imzalanması ilə Rusiya İmperiyasının bu regiona hakimiyyəti başladı. Rusiya bütün Qafqazı öz hakimiyyəti altına gətirməyə nail olduqdan sonra imperatorluğu bölgələrə ayırmaq siyasətini həyata keçirmək qərarına gəldi. Bu siyasət bir çox məqsəd daşıyırdı və onlardan da ən önəmlisi Rusiyanın bu əraziyə nəzarətini stabilləşdirmək idi. Qeyd olunan siyasət çərçivəsində Qafqaz regionunun cəmiyyətinin tərkibini dəyişdirmək məqsədilə İran və Osmanlı Türkiyəsindən erməniləri toplayaraq bu regiona köçürtdülər. Belə ki, ١٨٠٦-١٨١٣ və ١٨٢٦-١٨٢٨-ci illərdə Rusiya-İran müharibələrindən, həmçinin, ١٨٢٨-١٨٢٩-cu illərdə Rusiya-Osmanlı müharibələrindən sonra Qarabağın etnik tərkibi tamamilə dəyişildi. Təkcə ١٨٢٨-ci ildən ١٨٣٠-cu ilə kimi ٤٠٠٠٠ nəfərdən çox erməni İrandan və ٨٤٦٠٠ nəfərdən çox erməni Osmanlı İmperiyasından gətirilərək Qarabağda yerləşdirildi.

١٨٢٨-ci ildə Rusiya imperatoruun göstərişi ilə işğal edilmiş Azərbaycan ərazilərində erməni xanlıqları yaradıldı ki, türk dilli bölgələri bir-birindən ayrı bir neçə bölgəyə ayırmaqla Osmanlı İmperiyasının xəlvət həyatında maneə yaransın. ١٨٣٦-cı ildə rus çarlığı tərəfindən Albaniya kilsəsinin ləğv edilməsi bu regionda ermənilərin qriqorиləşdirilməsi və ya xristian əhalisinin erməniləşdirilməsinə səbəb oldu.

١٩١٨-ci ildə Rusiyada bolşeviklərin inqilabının və bu ölkənin işğal etdiyi ərazilərə nəzarətinin zəifləməsinin ardınca eyni gündə Azərbaycan Demokratik Respublikası və Ermənistan Müstəqil Respublikası yarandı. Osmanlı İmperiyası Cənubi Qafqaz ölkələrinin müstəqilliyini tanıyan ilk ölkə oldu və Batumi sülh müqaviləsini imzalamağa addım atdı. Müqavilədə bu

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

ölkələrin sərhədləri də müəyyən olmuşdu. Bu müqavilədə Ermənistan ölkəsinin ərazisi ١٠,٠٠٠ kvadrat kilometr göstərilirdi. Sözsüz ki, Qarabağ məntəqəsi Azərbaycan Demokratik Respublikasının bir hissəsi hesab edilirdi. Lakin, ١٩٢٠-ci ildə Qırmızı ordunun Bakıya hücum etməsi nəticəsində Azərbaycan Demokratik Respublikası öz müstəqilliyini itirdi.

١٩٢١-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosu müsəlmanlar və ermənilər arasında sülhü qorumaq məqsədilə Qarabağı Azərbaycan ərazisi kimi tanıdı, lakin bu regiona geniş muxtariyyət verməsini nəzərdə saxladı. Azərbaycanlıların çoxluq təşkil etdiyi bəzi bölgələr, o cümlədən əraziləri ٩٠٠٠ kvadrat kilometr olan Zəngəzur və Göyçə Ermənistana verildi. Ümumiyyətlə keçmiş Sovet İttifaqının dövründə Azərbaycanın ərazisindən ٢٠٠٠٠ kv. km-i Ermənistana verildi.

١٩٢٣-cü ildə Kommunist Partiyasının Mərkəzi Komitəsi Xankəndi[٨] mərkəz olmaqla Qarabağ Muxtar Vilayəti yaratdı.

Uzun sürən soyuq müharibə illərində Ermənistanda yaşayan azərbaycanlılar təzyiq altında idilər. Bu üzdən onların çoxu öz yurdlarını tərk etməyə məcbur olmuşdu. Rəsmi statistikaya görə ١٩٤٨-١٩٥٣-cü illər arasında ٥٠٠٠٠ azərbaycanlı Ermənistanı tərk edərək Azərbaycana köçüb.

١٩٨٧-ci ilin noyabrında Qarabağın Ermənistana birləşdirilməsinə aid olan Aqanbeqyan Bəyannaməsi Ermənistan və Azərbaycan arasında bir-birlərinə qarşı ümumi nifrəti artırdı. Bu məsələ İrəvanda Qarabağın Ermənistana birləşməsini istəyən mitinqə səbəb oldu. Həmin mitinqlər zamanı DQMV-nin Ermənistan SSR-ə verilməsi barədə açıq tələblər səsləndi. Erməni rəsmilərinin qərarı ilə Ermənistanda yaşayan azərbaycanlılar kütləvi surətdə bu ölkədən çıxarıldı və onlar əsasən Azərbaycanın Bakı və Sumqayıt şəhərlərinə üz tutdular. Bu münaqişənin ilk qurbanları da elə həmin ildə öz canlarını itirdilər, yəni iki azərbaycanlı dinc sakin Əsgəran rayonunda öldürüldü. Bu iğtişaşlar Azərbaycanın Sumqayıt şəhərində müxtəlif millətlərdən olan ٣٢ nəfərin öldürülməsi və Ermənistanın Qukark, Spitak, Stepanavan rayonlarında ٣٣ nəfərin qətlə yetirilməsi ilə tədricən bərkidi.

١٩٨٩-cu ildə Ermənistanın Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsinə razılıq" verən qanun qəbul etdi. Bu qanun bütün beynəlxalq qayda-qanunlarla zidd idi və aşkar olaraq qonşu ölkə olan Azərbaycanın ərazi bütövlüyünü təhdid edirdi. ١٩٩٠-cı il ١٣ yanvarda sovet qoşunları Bakıya hücuma keçdi və dinc əhalini qətliam etdi. ١٩٩١-ci ildə ermənilər Qarabağın dağlıq hissəsində "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini elan etdilər. Bu da Qarabağı Azərbaycanın ayrılmaz parçası bilən Azərbaycan Respubllikası dövləti və xalqının geniş müxalifət və etirazı ilə qarşılandı. Erməni qüvvələrinin Azərbaycan ərazisinin daxilinə doğru irəliləməsi Azərbaycanın xalq qüvvələrinin müqaviməti ilə qarşılaşdı və bu qarşıdurma hər gün genişlənməyə və bərkiməyə başladı. Bu hadisələr artıq ١٩٩٢-ci ildə erməni və azərbaycanlı qüvvələr arasında tam bir müharibəyə çevrildi və erməni qüvvələrinin uğurları ilə yanaşı oldu. Beləliklə, ermənilərin Qarabağı işğalı davam etdi. Bu gün də bu münaqişə

[٨]. ١٩٢٣-cü ildə Xankəndi şəhərinin adını dəyişərək Stepanakert qoydular. Bu ad bolşeviklərin tanınmış rəhbərlərindən olan Stepan Şaumyanla bağlıdır.

Aran Agentliyi
www.arannews.ir
Xəbər.məqalə və təhlil Qafqaz haqqında

davam etməkdədir və münaqişənin həlli üçün hələ də regional və beynəlxalq cəhdlər səmərəsiz qalmışdır.

### ٢،٢. Qarşıdurma tərəflərinin hüquqi aspekt və iddiaları

#### ٢،٢،١. Ermənistan Respublikasının əsas iddiaları

Ermənistan Respublikasının Qarabağla bağlı ən mühüm hüquqi iddiaları bu ərazinin heç vaxt Azərbaycana aid olmaması oxu ətrafındadır. Onlar, ١٩١٨-ci ildə Azərbaycan Demokratik Respublikasının təşkil olunması və bu respublikanın Sovet İttifaqına qoşulması tarixini əsas tutaraq belə düşünürlər ki, bu ölkənin ərazisi Qarabağı əhatə etmirdi, hətta bu ölkənin Qarabağa şamil olan qərb sərhədlərində Qafqaz erməniləri ilə ərazi ixtilafı olması üzündən o vaxtın Millətlər Liqası Azərbaycanın müstəqilliyini tanımamışdı. Üstəlik, bu ölkənin iddia etdiyi bəzi ərazilərə hakimiyyəti qanuni olmadığı üçün qeyd edilən bölgələrdə nəzarəti ələ ala bilməmişdi.

Bundan əlavə, ermənilər ١٩٩١-ci ildə Sovet İttifaqının parçalanma prosesində Qarabağın Azərbaycandan ayrılmasına və Dağlıq Qarabağ Respublikasının yaranmasına təkidlə işarə edirlər. Bu çərçivədə Sovet İttifaqına üzv olan ölkələrin bu ittifaqdan ayrılması barədə qanunları üzərində xüsusi diqqət edirlər. Rəsmi Yerevanın fikrincə, Dağlıq Qarabağın ١٩٩١-ci ildə SSRİ-nin parçalanması prosesində Azərbaycandan ayrılması və "Dağlıq Qarabağ Respublikası"nın yaradılması qanuni şəkildə baş vermişdir. Mövqelərini əsaslandırmaq üçün onlar əsasən "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" ٣ aprel ١٩٩٠-cı il tarixli SSRİ Qanununun müddəalarına istinad edir. Qeyd edilən qanuna əsasən, müttəfiq respublika tərəfindən qanunla nəzərdə tutulmuş ayrılma proseduru həyata keçiriləcəyi təqdirdə, muxtar qurumlar SSRİ və ya ayrılan respublika tərkibində qalıb-qalmama barədə müstəqil qərar qəbul etmək, eləcə də öz dövlət-hüquqi statusu məsələsini qaldırmaq hüququ əldə edir.

Beləliklə, Ermənistan hazırkı Azərbaycan Respublikasını Sovet İttifaqının tərkibində olan qabaqkı Azərbaycan SSR-inn münasib canişini hesab etmir. (İsanejad və Yəzdanpənah, ١٣٨٩: ٤.)

Bu baxımdan Sovet İttifaqının yaxşı idarə edilməsi üçün bu ittifaqın daxilində formalaşmış qabaqkı sərhədlərin hələ də öz qüvvəsində qalmasına heç bir dəlil yoxdur.

#### ٢،٢،٢. Azərbaycan Respublikasının iddiaları

"Millətlər Liqası" (Millətlər Cəmiyyəti) məsələsinə Azərbaycan tərəfinin cavabı budur ki, ١٩١٨-ci ildə ingilis qüvvələri Bakıya daxil olanda Koalisiya qüvvələrin nümayəndəsi Qarabağı Azərbaycan ərazisinin bir hissəsi kimi tanımışdı. Həmçinin, bu nümayəndənin Qarabağın

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

Aran Agentliyi
www.arannews.ir
Xəbər.məqalə və təhlil Qafqaz haqqında

general-qubernatoru Xosrov Sultanovla görüşü də bu məsələni bir daha təsdiqləyir. Həmçinin, ١٩١٩-cu ildə Ermənistan məclisi rəsmi olaraq Azərbaycanın Dağlıq Qarabağ üzərində hakimiyyətini qəbul edib. (Swietochowski,١٩٩٥: ٧٥.)

١٩١٨-ci ildən ١٩٢٠-ci ilədək Azərbaycan Respublikasının bir sıra qonşu ölklələrlə diplomatik münasibətləri olmuşdur və bu ölkələrlə ikitərəfli razılaşmalar imzalanmışdır. ٦ ölkə Azərbaycanda nümayəndəlik yaratmışdı. ١٩٢٠-ci il ١٢ yanvarda Paris konfransının ali şurasında Azərbaycanın istiqlalını de-fakto tanımaq haqqında yekdilliklə qərar qəbul olundu.

Paris Sülh Konfransında iştirak etmiş Azərbaycan nümayəndə heyətinin başçısı ١٩٢٠-ci ilin noyobrın əvvəlində Millətlər Cəmiyyətinin Baş katibinə məktubla müraciət edərək, Azərbaycan Respublikasının Təşkilata üzv qəbul edilməsi ilə bağlı ərizəsinin Cəmiyyətin Assambleyasına təqdim edilməsini xahiş etmişdir. Baş katib ٢٤ noyabr ١٩٢٠-ci il tarixli Memorandumunda Paris Sülh Konfransındakı Azərbaycan nümayəndə heyətinə mandatın Bakıda ١٩٢٠-ci ilin aprel ayına kimi hakimiyyətdə olmuş hökumət tərəfindən verildiyini qeyd etmişdir. Bununla belə, Memorandumda Azərbaycan nümayəndə heyətinin müraciət etdiyi (١ noyabr ١٩٢٠-ci il) və Memorandumun dərc olundugu tarixdə (٢٤ noyabr ١٩٢٠-ci il) Azərbaycan nümayəndə heyətinə mandat vermiş Azərbaycan Respublikası hökumətinin artıq ١٩٢٠-ci ilin aprel ayından de-fakto hakimiyyətdə olmamasına xüsusi diqqət yetirilir. Daha sonra memorandumda bu hökumətin ölkənin bütün ərazisinə nəzarət etmədiyi göstərilirdi. Həmçinin, o məktubda aşkar qeyd edilmişdir ki, bu dövlətin öz ərazilərinə tam nəzarət etmək gücü yoxdur. (Malcolm, ٢٠٠٣: ٧.)

Bu konteksdə qeyd olunan Millətlər Cəmiyyəti Baş katibinin Memorandumunun ən mühüm hissəsi "Hüquqi mülahizələr" fəslidir. Həmin fəsildə dövlətlərin tamamilə özünüidarəedən olması tələbi də daxil olmaqla, təşkilata yeni üzvlərin qəbul edilməsi ilə bağlı Millətlər Cəmiyyəti Nizamnaməsinin ١-ci maddəsində təsbit edilmiş şərtlər xatırladılır. (İbid.)

Bu sənədlər erməni tərəfinin Millətlər Cəmiyyətinin Azərbaycanı üzvlüyə qəbul etməməsini onun Azərbaycanın Dağlıq Qarabağ üzərində hakimiyyətini tanımaması və guya ermənilər məskunlaşmış ərazilərə iddia etməsilə əlaqələndirməsi fikrini tamamilə təkzib edir. Aydındır ki, ərazisinin mühüm bir hissəsi ərizəsi Millətlər Cəmiyyətində baxıldığı bir dövrdə işğal altında olan, ərizəni təqdim edən hökuməti isə devrilmiş olan bir dövlət Millətlər Cəmiyyəti Nizamnaməsinin ١-ci maddəsinin tələblərinə əsasən, tam özünüidarəetmə qabiliyyətinə malik subyekt kimi nəzərdən keçirilə bilməzdi. (Musayev, ٢٠٠٧: ١٤.)

Eyni zamanda Millətlər Cəmiyyəti aydın və tanınmış sərhədlərə, status və konstitusiyaya, sabit hökumətə sahib olmadığı üçün Ermənistanın özünü dövlət kimi tanımırdı. Nəticədə, ١٦ dekabr ١٩٢٠-ci il tarixində Ermənistanın Millətlər Cəmiyyətinə üzvlüyə qəbul edilməsi rədd edilmişdi. (League of Nations. Armenia. Assembly, ٢٥١: ٣.)

Ermənilərin Sovet İttifaqı tərkibinə qatılarkən Qarabağın müstəqil Azərbaycanın yurisdiksiyası altında olmaması ilə bağlı tezisi həmçinin Ermənistanın ərazi iddiları ilə əlaqədar olaraq bu məsələyə bir neçə dəfə baxmış RK(b)P MK Qafqaz Bürosunun qərarları ilə də təkzib edilmiş və özünün ٥ iyul ١٩٢١-ci il tarixində keçirilmiş iclasında Dağlıq Qarabağın Azərbaycan SSR

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

tərkibində saxlanılması barədə qərar vermişdir. Eyni zamanda Azərbaycan SSR-ə Dağlıq Qarabağa geniş muxtariyyət vermək təklif olunmuşdur. (Swietochowski,١٩٩٥: ٤٠).

١٣ oktyabr ١٩٢١-ci il tarixində Qarsda RSFSR-in iştirakı ilə bir tərəfdən Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR, digər tərəfdən isə Türkiyə olmaqla bu ölkələr arasında Dostluq haqqında müqavilə imzalandı. Bu müqavilənin ٥-ci maddəsinə əsasən Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. (Anonymous,١٩٦٠: ٤٢٣.)

Bundan əlavə varislik ardıcıllığı sərhəd və ərazi ilə bağlı heç bir dəyişiklik yaratmır. Ona görə də Azərbaycanın Sovet İttifaqının tərkibindən çıxaraq yenidən müstəqilliyini bərpa etməsi beynəlxalq hüquqlara uyğun olub, onun keçmiş əraziləri qanunidir və hörmətlə yanaşılmalıdır. Uti possidetis juris doktrinasına görə, Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdiyi andan etibarən hüdudlarına Dağlıq Qarabağın də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri beynəlxalq sərhəd hesab olunur və beynəlxalq hüquq tərəfindən qorunur. Qeyd olunan fikir BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi məlum qətnamələrdə də öz əksini tapmışdır. (Security Council Resolution ٨٢٢: ٧٠.) Üstəlik, "Müqavilələrə münasibətdə dövlətlərin hüquqi varisliyi haqqında" Vyana Konvensiyasının ١١-ci maddəsinə yönəldilməlidir. Belə ki, bu maddəyə əsasən, "dövlətlərin hüquqi varisliyi qabaqkı sərhədlərin dəyişməsinə şamil edilmir". (Malcolm, ٢٠٠٣: ٤٨.) Başqa sözlə, qeyd olunan müddəa özündə, faktiki olaraq, hüquqi varislikdən asılı olmayaraq, mövcud sərhədlərin olduğu kimi saxlanılmasına münasibətdə konseptual beynəlxalq-hüquqi yanaşmanı ehtiva edir. Bu isə o deməkdir ki, suverenliyin dəyişməsi daimi xarakter daşıyan sərhədləri sarsıtmağa qadir deyildir. (Malcolm,١٩٧٧: ٩٠.)

Yuxarıda qeyd olunanlardan aydın olur ki, Azərbaycan Respublikasının torpaqlarının ٢١٪-i işğal altındadır. BMT TŞ-nın ٨٢٢ saylı ٣٠ aprel ١٩٩٣-cü il tarixli , ٨٥٣ saylı ٢٩ iyul ١٩٩٣-cü il tarixli, ٨٧٤ saylı ١٤ oktyabr ١٩٩٣-cü il tarixli və ٨٨٤ saylı ١١ noyabr ١٩٩٣-cü il tarixli Qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünə təkid olunmuşdur və erməni qüvvələrinin heç bir qeyd və şərt olmadan bu ölkənin ərazilərindən dərhal çıxması tələb olunmuşdur. Buna baxmayaraq indiyə kimi bu qətnamələrin heç biri icra olunmamış qalır.

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

### ٢,٢,٣. İcra oluna bilən beynəlxalq hüquqlar

Silahlı münaqişələr hüququ kimi tanınan Beynəlxalq Humanitar Hüquq və Beynəlxalq Cəza Hüququnun Qarabağ konfliktində icra edilməsinə cəhd edilir.

#### ٢,٢,٣,١. İcra oluna bilən Beynəlxalq Humanitar Hüquq

Azərbaycan ölkəsi ١٩٤٩-cu ildən Cenevrə Konvensiyasına qoşulmuşdur, lakin ona əlavə edilmiş protokolu ratifikasiya etməmişdir. Ermənistan isə qeyd edilən hər iki sənədin iştirakçısıdır. ٢-ci maddədə deyilir ki, ١٩٤٩-cu il Konvensiyası müqaviləni qəbul etmiş tərəflərdən hər birinin ərazisinin hamısı, yaxud bir hissəsi işğal olduğu surətdə icra oluna bilər.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Azərbaycan Respublikasının ərazilərinin təqribən ٢١٪-i Ermənistan tərəfindən işğal olunub. İşğal olunmuş ərazilər Qarabağ və onun ətrafında olan ٧ rayondan ibarətdir. Ermənistanın hərəkəti beynəlxalq silahlı münaqişələrə şamil olan birinci protokola aid olur. Halbuki Azərbaycan birinci protokolu ratifikasiya etməyib, lakin bu ölkənin hərəkətləri birinci protokola aid olur. Birinci protokolun maddələri konvensiyanın bütün üzvlərinə aid olan və icra olan ümumi və ortaq beynəlxalq hüquqlardır.

Qarabağ regionu Azərbaycan Respublikasının bir hissəsi olub və bu ölkənin Sovet İttifaqından ayrılması ilə eyni zamanda öz müstəqilliyini rəsmi surətdə elan edib. Bu region hər cəhətdən Azərbaycanla əhatə olunmuşdur, başqa sözlə tamamilə Azərbaycan ölkəsinin daxilində yerləşir.

Qarabağ öz müstəqilliyini elan etdikdən sonra beynəlxalq camiə tərəfindən rəsmi olaraq tanınmadı. Müharibənin başlamasından qabaq bu bölgədə ١٨٠ min nəfər əhali yaşayırdı. Bu silahlı münaqişə qeyri-beynəlxalq, yaxud beynəlxalq daxili müharibənin bir nümunəsidir. Sözü gedən münaqişə əvvəl daxilli bir müharibə olub və digər ölkələrin silahlı qüvvələri seperatçılara kömək məqsədilə bu müharibəyə müdaxilə ediblər. (Gasser,١٩٨٣:١٤٥.)

Ermənistan bu müharibədə Azərbaaycanın silahlı qüvvələri ilə mübarizə etmək üçün müdaxilə edib və seperatçılara əsaslı köməklər göstərib. (Azerbaijan. Seven Years of Conflict in Nagorno-Karabakh, ١٩٩٤: ١١٨.)

Hər bir münaqişənin qanunları o münaqişənin beynəlxalq silahlı, yaxud qeyri-beynəlxalq silahlı olmasından asılı olaraq fərqlidir. Habelə, bu qanunlar qarşıdurma tərəflərinin dövlət, yaxud qiyamçı fərdlər olması baxımından da fərqlidir. Qarabağda Azərbaycan və Ermənistan arasında baş vermiş müharibə ١٩٤٩-cu il IVCenevrə Konvensiyasının ortaq ٣-cü maddəsinə əsasən, daxili bir müharibə hesab olunur. ٣-cü ortaq maddə müharibə edən düşmən tərəflərin hər birindən (o cümlədən Qarabağ seperatçılarından) müharibə ilə bağlı qayda-qanunları əməl etməyi tələb edir. Həmçinin, qeyd edir ki, onların heç birinin ١٩٤٩-cu il Cenevrə Konvensiyasını imzalamağa haqqı yoxdur. Seperatçılarda bu Konvensiyaya üzv ölkələrin hər birinin daxilində olursa olsun, konvensiyanın öhdəliklərinə əməl etməlidirlər. (Commentary on the Additional Protocols of ١٩٧٧: ١٣٤٥.)

٣-cü maddədən Qarabağın istiqlalını, yaxud seperatçı məqsədlə başlanan müharibəni nəticə olaraq çıxarmaq mümkün deyil və lazım deyil ki, hər hansı bir ölkə ٣-cü maddəyə əsasən, onun müstəqilliyini, yaxud seperatçıların müharibəsini tanısın.

١٩٤٩-cu il Cenevrə Konvensiyaları üçün ümumi olan ٢-ci maddədə deyilir: "Bu konvensiya iki və ya daha artıq yüksək razılığa gələn tərəflər arasında meydana çıxan elan olunmuş müharibə və ya istənilən digər silahlı münaqişə zamanı, həmin tərəflərdən biri müharibə vəziyyətini tanımadığı halda belə, – tətbiq olunur. Konvensiya habelə yüksək razılığa gələn tərəfin ərazisinin bütövlükdə və ya qismən işğal olunduğu bütün hallarda, – bu işğal heç bir silahlı müqavimətə rast gəlmədikdə belə, – tətbiq olunur".

Azərbaycan və Ermənistan arasında baş verən silahlı münaqişəyə beynəlxalq müharibə adı vermək üçün bu iki ölkə arasında de-fakto düşmənçiliyinin olması gərəkdi. Konvensiyaya

Aran Agentliyi
www.arannews.ir
Xəbər.məqalə və təhlil Qafqaz haqqında

qoşulumş ölkə tərəfindən hər bir silahlı müdaxilə ٢-ci maddəyə şamil olur. Hətta, əgər iştirakçılardan biri müharibə edən dövləti[٩] inkar etsə də –müharibənin nə qədər uzanımasından və nə qədər təlafat verməsindən asılı olmayaraq. Burada neçə nəfərin öləcəyi deyil, insanın mövcudluğuna hörmət irəli sürülür. (Commentary on IV Geneva Convention: ١٩٥٨: ٢١.)

Bu, Qarabağ müharibəsi barədə icra oluna biləcək Beynəlxalq Humanitar Hüquqları[١٠] ilə qısa tanışlıq idi.

İndi isə Qarabağ müharibəsində dəstəklənən mükli şəxslər, hərbçi və qeyri-hərbçilər, habelə bu hüquqlara aid olan bir sıra adət qanunlarını nəzərə almaqla Beynəlxalq Humanitar Hüquqlarının xüsusi məsələlərinə toxunuruq.

### ٢,٢,٣,٢. Hərbi şəxslərin hüquqları

Beynəlxalq və daxili silahlı müharibələr arasında fərqli olan üsullardan biri də hərbi əsirlərə tibbi yardım göstərilməsidir. Hərbi əsirlərin[١١]beynəlxalq silahlı müharibələrdə bir sıra üstünlükləri vardır. (Solf,١٩٥٣: ٥٩.)

Beynəlxalq silahlı müharibələrdə əsir düşmüş hərbçilər müharibə əsirləri sayılır.[١٢] Ən azından onlara tibbi xidmətlər göstərilməsi barədə III Cenevrə Konvensiyasında qeyd olunmuşdur. Müharibə əsirləri müharibədə döyüşən bir ölkənin düşmənə əsir düşmüş silahlı qüvvələrinə, həmçinin, silahlı yaraqlılarna, milli müdafiə hərəkatlarına və könüllü şəxslərə şamil olur (III Cenevrə Konvensiyası). (Gasser,١٩٨٣:١٥,٢.)

Buna əsasən, Azərbaycan Respubllikası qüvvələri tərəfindən əsir düşmüş erməni qüvvələri müharibə əsirləri hesab olunur. Bu məsələ Ermənistan qüvvələri tərəfindən əsir düşmüş Azərbaycan qüvvələri haqqında da belədir. Lakin, III Cenevrə Konvensiyasının müharibə əsirləri haqqında qanunların Qarabağ seperatçıları tərəfindən əsir düşmüş Azərbaycan qüvvələrinə şamil olmur. Qarabağ seperatçıları da müharibə əsirləri hesab olunmur və müharibə əsirləri barədəki üstünlüklər onlara aid deyil. Azərbaycan dövləti onlarla adi cinayətkarlar kimi rəftar edə bilər. Azərbaycan dövləti həbs edilmiş Qarabağ seperatçılarına müharibə əsiri statusu verməyə məcbur deyil. Baxmayaraq ki, bu ölkə həbs edilmiş Qarabağ seperatçıları ilə müharibə əsirləri kimi rəftar etmişdir. Diqqət etmək lazımdır ki, müharibə əsirləri termini mülki şəxslərə[١٣] deyil, təkcə əsir düşmüş hərbiçilərə aiddir. Cenevrə Konvensiyasına əsasən, həmin şəxslərin həyatına və fiziki toxunulmazlığına qəsd etmək (öldürmək, şikəst etmək, amansız davranmaq, işgəncə vermək), ləyaqətinə toxunmaq, məhkəmə təminatlarına əməl olunmaqla ilkin məhkəmə qərarı olmadan mühakimə etmək və cəzalandırmaq qadağandır. Onlar istənilən zorakılıq aktlarından müdafiə olunmalıdırlar. Onlar öz ailələri ilə məktublaşmaq və kömək almaq hüququna malik olmalıdırlar. (Ibid:١٥٧.)

[٩]. State of war.
[١٠]. IHL.
[١١]. Captured combatants.
[١٢]. Prisoners of war.
[١٣]. Civilians.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Yuxarıda verilən izaha diqqət etməklə bir çox beynəlxalq insan hüquqları təşkilatları müşahidəçiləri hər iki tərəfin hərbi əsirlərin sayını dəqiqləşdirməkdə problemlə üzləşdilər. Bu təşkilatlar lazım olan sorğu və araşdırmaları həyata keçirdikdən sonra məlum oldu ki, onların çoxu müharibə dövrlərində süngü və bıçaq vasitəsilə öldürülüb. Onlardan bəziləri müharibədən sonra huşunu itirənə qədər işgəncə olunub. Azad olunmuş bir Qarabağ hərbçisinin dediklərinə görə əsir olduğu vaxt onun bədəninə qaynar su töküblər. Azad olunmuş bir Azərbaycan hərbçisinin dediklərinə əsasən, əsir olduğu dövrdə onu iki dostu ilə birlikdə tankın arxasına bağlayaraq yerdə sürüyüblər. Ermənistanda əsirlikdə olmuş iki azərbayacanlı Novruz Məhəmməd oğlu Daşdəmirov və Namiq Cavanşir oğlu Qarayev mütəmadi döyülmə, bədənlərinə qızdırılmış cismlərlə dağ basılma və başlarına mismar çalınması nəticəsində ruhi xəstə həddinə çatdırılmışlar. Həmçinin, bu əsirlərin bəzilərinin bədənlərinə qızmış əşya ilə damğa vurulmuşdur. Bəzi vaxtlarda bu əsirlər camaat tərəfindən təhqir etdirilmiş və ləyaqətləri alçaldılmışdır. Bəzi erməni rəsmilərinin dediklərinə əsasən, Ermənistan əsirliyində olan səkkiz Azərbaycan əsgəri bir erməni əsgərini öldürərək onun silahını götürmüş və qaçmağa cəhd etmişlər. Lakin dərhal onların izinə düşülüb. Planlarının üstü açıldıqdan sonra onlardan yeddi nəfəri özünü öldürmüşdür. Beynəlxalq müşahidəçilər bu intiharları qeyri-mümkün hesab etmiş və Ermənistanı baş vermiş hadisəyə görə ittiham edərək, bu məsələ qarşısında məsuliyyət daşıdığını bildirmişdir. Hərbi əsirlərlə belə rəftarlar qəbuledilməzdir və Beynəlxalq Humanitar Hüquqlar qanunları ilə əsaslı surətdə ziddir. (Malcolm, ١٩٧٧: ٩٠.)

١٩٩٣-cü ildə Azərbaycan və Azərbaycanın Qarabağı rəsmiləri arasında əsir və girov götürülmüş vətəndaşların dəyişdirilməsi ilə əlaqədar komitələr yaradıldı. Əsir və girovların dəyişdirilməsi davam etməsinə baxmayaraq, bir sıra beynəlxalq müşahidəçilər belə düşünürlər ki, bu komitələr daha çox müharibə əsir və girovlarını dəyişdirirlər. Müharibə zamanı erməni tərəfi girov götürməyə daha çox maraqlı idi. Halbuki, daxili silahlı münaqişələrdə girov götürmək qadağandır. Qarabağ seperatçıları müharibə boyunca bu qanunu tapdaladılar və erməni qüvvələrinin azərbaycanlıları girov götürmələrinə aid sənədlər mövcuddur. Həmçinin, IV Cenevrə Konvensiyasının ١٤٧-ci maddəsinə əsasən, beynəlxalq silahlı münaqişələr zamanı da girov götürmək və girov saxlamaq ١٩٤٩-cu ildən Cenevrə Konvensiyasına əsasən qadağandır və qanunu pozmaq hesab edilir. (Musayev, ٢٠٠٧: ١٥.)

Buna əsasən, girov götürməyə və saxlamağa icazə vermiş Ermənistan dövləti bu maddəni əsaslı surətdə pozmuşdur.

Qarabağ müharibəsi zamanı xəstələnmiş və yaralanmış şəxslərin durumu Beynəlxalq Qırmızı Xaç Komitəsi[١٤] tərəfindən dəqiq təsvir edilmişdir. Bu komitə bir daha atəşkəsdə iştirak etməyə və dinc əhalinin öldürülməsinin qarşısını almağa cəhd etdi. Qarabağ müharibəsinin başlanmasından indiyə qədər bütün beynəlxalq qayda-qanunlar pozulmuşdur. Beynəlxalq İnsan Hüquqları təşkilatlarının raportları göstərir ki, IV Cenevrə Konvensiyasının ١-ci protokolunda müharibə zamanı mülki şəxslərin müdafiəsini nəzərdə tutulmuş qanun ١٩٩٣-١٩٩٤-cü illərdə erməni qüvvələri tərəfindən ciddi pozulmuşdur. O cümlədən, mülki

١٤. ICRC.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

mənzillərin dağıdılması, girov götürmək, qarət etmək Ermənistan ölkəsinin Qarabağ seperatçılarını birbaşa dəstəkləməsinin nəticələrindəndir.

Qarabağın erməni qüvvələri ٢٧ martda Ermənistan və Rusiya ordusunun köməyi ilə Azərbaycanın Kəlbəcər[١٥] rayonunu işğal etmək məqsədilə Blitzkrieg[١٦] planlı əməliyyata başladı və ٥ apreldə əməliyyat sona yetdi. Bu əməliyyatda dinc əhalinin yaşayış yerindən zorla qovulması, hər tərəfi atəşə tutmaq[١٧] və girov götürmək barədə bir çox qanun-qaydalar pozulmuşdur. Bir həftə müddətində bu rayondan ٦٠ min əhali qovuldu və indiyə kimi də köçkün həyatı yaşayır, Kəlbəcər bölgəsi boş və qarət olunmuş halda qalır. Ermənilərin bu rayona hücumu nəticəsində çoxlu mülki əhali öldürüldü və ağır yaralandı. Hətta əhalinin qaçmasının qarşısını almaq üçün erməni qüvvələri bütün yolları bağlamışdı. Döyüşün başlamasına dair heç bir xəbərdarlıq edilməmişdi və mülki şəxslərin köçürülməsi və ya qaçmasına aman verilməmişdi.

Habelə, bu döyüşdə qarətçilik və əhalinin mülkünün dağıdılması kimi konvensiyada qadağan olmuş digər qanunlar da pozulmuşdur.

Ağdama[١٨] hücum hadisəsində də Qarabağın erməni qüvvələri girov götürmək, məqsədsiz atəşə tutmaq və əhalini yaşayış yerindən zorla qovma kimi müharibə qanunlarının bir çoxunu pozmuşlar. Şəhər süqut etdikdən sonra əmlak qarət edilmiş və şəhər ermənilər tərəfindən yandırılmışdır. Bu da digər bir qanun pozuntusudur. Sadalanan cinayətlər müharibə boyu erməni qüvvələri tərəfindən daim baş vermişdir. Əsasən də Zəngilan[١٩], Şuşa[٢٠] və Azərbaycanın digər bölgələrini işğal edərək, İran sərhədlərinə tərəf hərəkət etdikdə. Bu cür müharibə qanunlarının pozulması Qarabağ müharibəsi boyunca baş vermişdir. (ICRC Annual Report, ٢٠٠٦: ٢٤١).

### ٢,٢,٣,٣. Mülki şəxslərin hüquqları

Azərbaycanın Respublikasının işğal edilmiş bölgələrinin sakinləri olan və Ermənistan qüvvələri tərəfindən əsir götürülmüş azərbayacanlı mülki şəxslər IV Cenevrə Konvensiyasının müdafiəsinə haqlıdırlar. Sözü gedən konvensiyanın ٤-cü maddəsində mülki şəxslərə qarşı fiziki cəza, işgəncə, qətl və rəhimsizlik qadağan edilmişdir. (Gasser,١٩٨٣:١٢٥.)

IV Cenevrə Konvensiyası müddəaları işğal edilmiş ərazilərdə rəftara aiddir. Onun ٣-cü bölməsində insanı hər bir şəraitdə mərhum etmənin bütün formalarını qadağan etməklə başlayır (maddə ٤٧). Mülki əhalininin istər fərdi, istərsə də qrup halında hər növ köçürülməsinə yol verilmir, baxmayaraq ki, bəzi bölgələrin müvəqqəti boşaldılmasına icazə verilir, lakin o da hərbi zərurət və təhlükəsizlik lazım gəldiyi şəraitdədir (maddə ٤٩).

---

١٥. Kelbajar.
١٦. Blitzkrieg.
١٧. İndiscriminate fire.
١٨. Agdam.
١٩. Zanghelan.
٢٠. Shusha.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Bir sıra məhdudiyyətlər də işçi qüvvələri barədə qoyulmuşdur. ١٨ yaşınadək şəxsləri işğal olunmuş ərazilərdə işləməyə məcbur etmək olmaz. Təkcə ١٨ yaşından yuxarı işləmək qabliyyəti olan şəxsləri işlətmək mümkündür və bu iş də işğal edilmiş ərazinin ümumi ehtiyaclarını, yaxud ordunun ehtiyaclarını ödəmək məqsədilə olmalıdır. Habelə, iş təkcə işğal edilmiş ərazidə olmalıdır və mülki şəxsləri işğalçı orduya xidmət etməyə məcbur etmək olmaz (maddə ٥١).

İşğalçı tərəfin işağal etdiyi ərazilərdə mülki əhalinin əmlakını məhv etmək haqqı yoxdur. Yalnız dağıdılması qaçılmaz olduğu surət istisnadır və zəruri hərbi əməliyyat məqsədilə baş tuta bilər (maddə ٥٣).

İşğalçı tərəf ümumi idarələrin durumunu və məhkəmə hakimlərini dəyişə bilməz (maddə ٥٤).

İşğalçı tərəf işğal olmuş ərazilərdə yaşayan uşaqlara qarşı xüsusi diqqət göstərməlidir (maddə ٥٠), həmçinin qeyd edilən cəmiyyətin təhsil, qida və səhiyyə xidmətlərini təmin etməlidir (maddə ٥٥-٥٦).

İşğalçı gücün məcbur edildiyi bir qayda-qanun da işğal etdiyi ərazilərdə cəza və cinayət hüquqlarını qorumaq və ona əməl etməkdir. Bu qanunları yalnız o surətdə ləğv etməyə icazə verilir ki, IV Cenevrə Konvensiyasının qaydalarına qarşı təhdidlər yaranmış olsun (maddə ٦٤).

İşğalçı tərəfin cəza haqqında qanunları o vaxt icra edilə bilər ki, işğal olunmuş ərazilərdə yaşayan əhalinin danışdığı dildə hazırlansın və bu ərazilərdə mövcud qeyri-nizami və siyasi məhkəmələr kimi səlahiyyətli məhkəmələr tərəfindən icra edilsin (maddə ٦٥-٦٦).

Konvensiyasının ٦٧-ci maddəsi belə məhkəmələrin standartlara uyğun olması barədədir. Edam hökmünə qarşı da bir sıra məhdudiyyətlər vardır. Bu hökmün nümunələri təkcə ağır casusluq, bir, yaxud daha çox adamın ölümünə səbəb olmuş beynəlxalq cinayətlər, hərbi əməliyyatlar barədə qarşı tərəfə xəbər vermək kimi cəzalar üçün mümkündür (maddə ٦٤). (Ibid: ١٢٧.)

Həmçinin, bir sıra qanun-qaydalar da həbs olunmuş şəxslər və onların apellyasiya məhkəməsi haqları barədədir.

Erməni qüvvələri Qarabağ müharibəsi boyunca qeyd edilən bütün qayda-qanunları pozmuşlar. İşğal edilmiş ərazilərdə mülki şəxslərə işgəncələr verilmiş, dəstəliklə qətlam edilmiş, təhqiramiz rəftarlara məruz qalmışlar. Təqribən ٢٠ min mülki şəxs öldürüldü, ٥٠ min adam erməni qüvvələrinin IV Cenevrə Konvensiyasının qaydalarına əməl etməməyi üzündən müxtəlif dərəcəli xəsarət alaraq əlil olub, habelə erməni tərəfinin sözü gedən konvensiyanın ٤٩-cu maddəsini pozmaları səbəbinə etnik təmizləmə çərçivəsində ١٠٠ mindən yuxarı insan öz yurdlarını tərk etməyə məcbur olmuşdur. Mülki şəxslərin bir çoxu ölüm təhlükəsi olan işlərdə işlədilmiş və bu da ٥١-ci maddənin pozulmasıdır. ٥٠-ci maddənin pozulması nəticəsində ٩٠٠-dən çox ev qarət olunmuş və yandırılmış, təqribən ٦ min sənaye və kənd təsərrüfatı obyektləri qarət və məhv edilmiş, ٩ milyon kvadrat metr yaşayış ərazisi ilə yanaşı ١٥٠ min yaşayış binası, ٤٣٦٦ ictimai bina, ٦٩٥ səhiyyə dağıdılaraq viran edilmişdir.

Erməni qüvvələri müharibə zamanı işğal etdikləri ərazilərdə uşaqları heç cür müdafiə etməyiblər, yerli sakinləri qida və dərmanla təmin etməyiblər. Ən kiçik cinayətə görə mülki

şəxsləri edam ediblər. (Musayev, ٢٠٠٧: ٩.) Bu ədədlər mübahisə doğura bilməsinə baxmayaraq, həqiqət budur ki, ermənilərin işğalı zamanı saysız həddə mülki şəxslərin günahsız olaraq öldürülməsi şəkk-şübhə olmayan bir məsələdir.

### ٢,٢,٣,٤. Beynəlxalq Adət Hüquqları

Beynəlxalq Adət Hüquqları Qarabağ konfliktində bariz rol ifa edir. Yuxarıda da qeyd edildiyi kimi Ermənistan ١٩٤٩-cu il Cenevrə Konvensiyasına qoşulmuşdur və ona əlavə edilmiş protokolu da imzalamışdır. Lakin Azərbaycan indiyə kimi yalnız ١٩٤٩-cu il Cenevrə Konvensiyasına qoşulmuşdur. Ona görə də Ermənistan, Azərbaycandan daha artıq müharibə qayda-qanunlarına riayət etməyə borcludur. Bu arada münaqişənin hər iki tərəflərinin Qarabağ müharibəsində riayət etməli olduqları, lakin çox təəssüf ki, Ermənistanın əməl etmədiyi beynəlxalq adət hüquqlarından söz açacağıq.

Mülki şəxslərə hücum etməyi qadağan edən qanun[٢١]; bu qanun müharibə və hərbi əməliyyatlar zamanı ən mühüm qanunlardan biridir. Sözü gedən qanun I protokolun ٤١ və ٨٥-ci maddələrində və II protokolun ٤-cü maddəsində gəlmişdir. Habelə, bu qanun bir çox hərbi əsasnamələrdə öz əksini tapmışdır. Lakin, bir çox dövlətlər ona məhəl qoymamış və kobudcasına pozmuşdur. Onun nümunələrindən Almaniyanın (Blus və Renut) Strenger, Kruisus[٢٢] və Landover qalası[٢٣], İngiltərənin Amerikada Venlib və Doselrdə poxduğu qayda-qanunlarına işarə etmək olar. Bu qanun Beynəlxalq Adət Hüquqları kimi tanınmışdır (Henckaerts & Doswald-Beck, ٢٠٠٥: ١٦٥).

Beynəlxalq Adət Hüquqlarından biri də müharibədə hərbi və mülki şəxslərin ayırd edilməsidir. Münaqişə tərəfləri müharibə və hərbi əməliyyatlar zamanı mülki şəxsləri hərbi şəxslərdən ayırd etməlidirlər. Çünki əgər ayırd olunmasa, müharibə əsiri hüququnu itirə bilər. Azərbaycan tərəfi üçün də bu qanun önəmlidir. Çünki işğal olunmuş ərazilərdə tanınmamış müqavimət hərəkatları bu haqdan faydalana bilməz. Bu qanun I protokolun ٤٤ maddəsində qeyd edilmişdir və bir çox hərbi əsasnamələrdə özünə yer tutmuşdur. Onun nümunəsi olaraq Suarkaya[٢٤] işarə etmək olar. (Ibid: ٣٨٥.)

Qarabağ müharibəsində Beynəlxalq Adət Hüquqlarından ikisi pozulmuşdur:

Qarşıdurma tərəfləri beynəlxalq silahlı və qeyri-beynəlxalq silahlı münaqişələrdə camaatı qismən, yaxud ümumi olaraq öz yerlərindən zorla çıxarmağa haqları yoxdur. Təkcə təhlükəsizlik və hərbi zərurət halları istisnadır. Dövlətlərin öz ölkəsinin əhalisini işğal olunmuş, yaxud əhalisi boşaldılmış ərazilərə köçürməyə haqları yoxdur.

Birinci qanun Ermənistan ölkəsinin işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə hərəkəti zamanı pozuldu. İkinci qanun isə erməni cəmiyyətinin işğal olunmuş ərazilərdə yerləşdirilməsindən sonra baş verdi. Bu qanunların hər ikisi I protokolun ٨٥-ci maddəsində

[٢١]. Hors de combat.
[٢٢]. Strenger and Cruisus case.
[٢٣]. Llandovery Castle case.
[٢٤]. Swarka case.

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

qeyd edilib. Bir çox hərbi əsasnamələrdə də bunun qadağan olması göstərilir, habelə bir çox ölkələrin qanunverici orqanları tərəfindən qəbul edilmişdir. Loudest[٢٥] mövzusu Nürnberq məhkəməsinin onun barəsində mühakimə yürütdüyü müharibə cinayətlərindən biridir.

Ermənistan və Azərbacan ölkələri bir-birinin hərəkətlərinə diqqət etmədən Beynəlxalq Adət Hüquqlarına daha layiqli tabe olmalı və onları üzr diləməli mövqedə qərar verən hərəkətdən çəkinməlidirlər.

Qeyd olunan Beynəlxalq Adət Hüquqları sabiq Yuqoslaviya Beynəlxalq Cəza Məhkəməsində Martik[٢٦], Kubrik[٢٧] barədə də qaldırılmışdır. (Gasser,١٩٨٣: ١٤٥.)

### ٢,٣,٣,٥. Münaqişələrdə müharibə cinayəti

Qeyd olunduğu kimi Qarabağ müharibəsində bu beynəlxalq humanitar hüquqlar əsaslı və ciddi surətdə pozulmuşdur, hətta bu qanun pozuntularından bəziləri hər gün davam etməkdə və artmaqdadır. Qeyd olunan qanun pozuntuları Beynəlxalq Cinayət Məhkəməsini tənzimləyən Roma Nizamnaməsinə[٢٨] əsasən müharibə cinayəti hesab olunur. Bu müharibə boyu baş verən cinayətlər o qədər çox və dairəsi genişdir ki, onların hamısından burda söz açmaq mümkün deyil. Ona görə də burada müharibə boyu dəfələrlə təkrarlanan cinayətlər tanıdılmağa cəhd edilir.

Qarabağ müharibəsində baş verən ciddi cinayətlərdən biri qəsdən adam öldürməkdir. Qədsən adam öldürməyin müharibə cinayəti olmasına Roma Nizamnaməsində işarə olunmuşdur. Bu hansısa işin edilməsi, ya edilməməsi səbəbindən baş tuta bilər. Etmənistanın Azərbaycan ölkəsinə hücumu nəticəsində beynəlxalq humanitar hüquqların qadağan etməsinə baxmayaraq saysız-hesabsız insan öldürüldü. Erməni qüvvələrinin Azərbaycanın Kəlbəcər, Ağdam, Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan və digər bölgələrinə hücumları zamanı çoxlu məhbus və mülki şəxslərin qəsdən öldürülməsi barədə sənədlər mövcuddur. Qəsdən adam öldürmək erməni tərəfinin geniş törətdiyi cinayətdir və çox ağır müharibə cinayətlərindən hesab olunur, həmçinin mülki şəxslərin müdafiəsi haqqında beynəlxalq humanitar hüquqlarının əsaslarını zəiflədir.

Qarabağ müharibəsində etmənilərin geniş şəkildə mürtəkib olduğu digər bir cinayət girov götürməkdir. Mülki şəxslərin girov götürülməsi də Roma Nizamnaməsinə əsasən, müharibə cinayəti hesab edilir. Girov götürülənlər mülki şəxslərdir və qeyri-qanuni olaraq azadlıqdan məhrum edilirlər. Bu girovlardan siyasi məqsədlə və üstünlük qazanmaq üçün istifadə edilir. Onları həbs etmək yalnız əhalini müdafiə etmək, yaxud onların təhlükəsizliyini təmin etmək məqsədilə olsa, qanuni sayıla bilər. Müharibə boyunca erməni qüvvələrin mülki şəxsləri girov götürmələri barədə də çoxlu sənədlər mövcuddur. Demək olar ki, hər bir hücumda girov

[٢٥]. Loudest case.
[٢٦]. Martic case.
[٢٧]. Kupreskic case.
[٢٨]. Rome Statute.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

götürmək cinayəti də baş vermişdir. Bu girovlardan müharibə əsirlərini dəyişdirmək üçün də istifadə edilmişdir. (Gasser,١٩٨٣: ١٤٥.)

Qarabağ müharibəsində Roma Nizamnaməsinə əsasən, ermənilər tərəfindən baş vermiş müharibə cinayətlərindən biri də qəsdən hücumdur. Qəsdən olunan bu hücumlar onun mülki şəxslərə xəsarətlər dəyəcəyini, şəhərin obyektlərinin xarab olacağını, təbiətə böyük zərər dəyəcəyini bildikləri surətdə baş tuturdu. Bu hücumların təkcə o zaman qanuni sayılması düzgün ola bilər ki, hücum olunan bölgələrdə əhali yaşamasın və mülki şəxslərə təsiri olmasın. Bu hücumlar qəsdən olduğu surətdə müharibə cinayəti hesab olunur. Qarabağ müharibəsində dinc əhaliyə qarşı hücum və hər tərəfi atəşə tutmaq, qeyri-hərbi obyektləri dağıtmaq adət halını almış bir məsələ idi və hələ də bu günə kimi davam etməkdədir. Mülki əhaliyə ciddi zərər vuran bu cinayət tərkibli hücum ermənilərin Kəlbəcər, Ağdam, Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan və digər bölgələrə hücumları zamanı dəfələrlə baş tutmuşdur. (Henckaerts & Doswald-Beck,٢٠٠٥: ٢٠١.)

Roma Nizamnaməsində cinayət kimi tanınan və ermənilərin Azərbaycan ərazilərini işğalı zamanı baş vermiş digər bir cinayət birbaşa və ya dolayısı ilə ermənilərin işğal bölgələrinə köçürülməsidir. IV Cenevrə Konvensiyasının ٤٩-cu maddəsində işğalçı tərəf, yaxud hər hansı bir dövlət tərəfindən onun məqsəd və marağından asılı olmayaraq işğal edilmiş ərazilərə fərdi, ya toplum şəkilində əhali köçürülməsi qadağan olunur. I protokolun ٨٥-ci maddəsində işğalıçının öz adamlarını işğal olunmuş ərazilərə köçürməsi yasaqlanır. Hər bir köçürmə gərək beynəlxalq humanitar hüquqlara uyğun şəkildə olsun. Halbuki, Qarabağ müharibəsində erməni işğalçılığı üzündən ٤٥٠ min azərbaycanlı öz yurd-yuvalarını tərk etməyə məcbur oldu və digər tərəfdən ermənilər bu ərazilərə köçürüldü. Əhalinin belə bir geniş həddə köçürülməsi və camaatı yurd-yuvasını tərk etməyə məcbur etmək, məcburi köçürmənin aşkar nümunəsi və cinayətdir (Musayev, ٢٠٠٧: ٦).

Qarabağ müharibəsində baş verən cinayətlərdən biri də ermənilər tərəfindən şəhərlərin yandırılması və vəhşiliklər törətmələridir. Sabiq Yuqoslaviya Beynəlxalq Cəza Məhkəməsi selbisi[٢٩] terminini od vurmaq, yandırmaq mənasına işlədərək müharibə cinayəti hesab edir və bu əməlin yol verilməz olduğunu bildirir. Bu yasaq silahlı münaqişədə əhalinin şəxsi əmlakını dağıtmaq və paylamağa da şamil olur. Əhalinin əmlakının müsadirə olunması zorakılıq, yaxud mülayimliklə olmasına baxmayaraq yenə də cinayət hesab olunur. Düşmən tərəfin əmlakının paylanması müharibə və hərbi əməliyyatlarda diqqəti çəkəndir. Lakin mülki əhalinin şəxsi əmlakı toxunulmazdır və bu əmlakı onların əlindən almaq qarət və yağmalamaq hesab olunur. Halbuki, şəxsi əmlakı qarət etmək və onlara od vurmaq müharibədə ermənilərin daha çox mürtəkib olduğu cinayətlərdən idi. Ermənilərin Azərbaycan torpaqlarına hər bir hücumunda mülki əhalinin əmlakını yağmalamaları, qarət etmələri və ona od vurmaları adi bir hal idi. Qarət edilmiş şəxsi əmlakın dəyəri ١٠٠ minlərlə Amerika dollarından çoxdur. Müharibənin əvvəlindən indiyə kimi olaraq bu ermənilər tərəfindən mütəmadi surətdə təkrarlanan cinayətlərdən biridir.

٢٩. Celebici case.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Beynəlxalq nizamnamələrə əsasən, Qarabağ müharibəsində baş verən digər cinayətlərdən işgəncə vermək, qeyri-insani rəftar, qəsdən ağır yaralamaq, şəhər, rayon, kənd, müdafiəsiz və qeyri-hərbi yaşayış məntəqələrinə hücum və onları bombalamaq, öldürmək, özünü müdafiə etmək istəməyini göstərməyən döyüşçüləri yaralamaq və onlarla digər belə cinayətləri nümunə göstərmək olar. (Lund, ٢٠٠١: ٤١).

### ٢,٢,٣,٦. Soyqırım

Qarabağ münaqişəsi boyunca ermənilər işğal edilmiş Azərbaycan ərazilərində, həmçinin Ermənistanda məskunlaşmış azərbaycanlılara qarşı müxtəlif cinayətlər törədiblər. Bütün bunları soyqırım adlandırmaq mümkündür. Bu rəftar həmin ərazilərdə yaşayan azərbaycanlı cəmiyyətin bir hissəsini məhv etmək məqsədilə həyata keçirilib. Ona görə də Cenevrə Konvensiyasının soyqırımla bağlı maddələrinə və yuxarıda qeyd edilən Roma Nizamnaməsinə əsasən, bunu etnik qrupların məhv edilməsi məqsədilə həyata keçirilən soyqırım kimi tanımaq olar. Etnik qruplar, o qruplara deyilir ki, onların üzvləri ortaq dil və mədəniyyətə malik olsunlar. Bir etnik qrup özünü yuxarıda qeyd edilən üsullar əsasında tanıda bilər, yaxud onları çıxmaqla və digər qrupların qarşılığında öz kimliyini ayırd edə bilər. (Hermann,١٩٦٩: ٢١٠.)

Məqalənin davamında Qarabağ münaqişəsinin başlamasının ilk dövrlərindən baş verən soyqırım barədə söz açacağıq.

١٩٨٨-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanmışdır. Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin azərbaycanlıların Ermənistandan zorla çıxarılması prosesində ermənilər minlərlə qanlı aksiyalar törətdilər. Bunun davamı kimi ١٩٨٨-٨٩ cu illərdə etnik təmizləmə nəticəsində Ermənistanın ١٨٥ yaşayış məntəqəsi boşaldılmış, ٢٥٠ mindən artıq azərbaycanlı öz ev-eşiyindən zorla qovulmuş, ٢١٧ azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Bunlardan ٤٩ nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, ٤١ nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, ٣٥ nəfər işgəncələrlə qətlə yetirilmiş, ١١٥ nəfər yandırılmış, ١٦-sı güllələnmiş, ١٠ nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, ٢ nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərayanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir.(Oliker & Szayna, ٢٠٠٣: ٨٠.)

Qarabağ müharibəsinin ən dəhşətli hadisəsi Xocalı soyqırımı olmuşdur.

١٩٩٢-ci il fevralın ٢٥-dən ٢٦-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş ٣٦٦-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdilər və soyqırım cinayətinə əl atdılar. Hücumdan əvvəl, fevralın ٢٥-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlamışdır. Xocalıya hücuma hazırlıq fevralın ٢٥-də axşam ٣٦٦-ci alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan ٢ saatlıq atəşdən sonra başlamışdı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Erməni qüvvələri şəhəri hər

tərəfdən mühasirə etmiş və yalnız dinc əhalinin qaçacağı yerdə pusqu qurmuşdular. Qabaqcadan hazırlanmış bu plan əsasında Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir. (Ibid: ٨٦.)

Həmin zaman Azərbaycan qüvvələrinin əhaliyə kömək üçün özlərini Xocalıya çatdıra bilməsi mümkün olmadı. Habelə, ölən və yaralıları oradan çıxarmaq heç cür mümkün deyildi. Erməni dəstələri özlərini gizlətmək üçün ağ paltarlardan istifadə edərək sağ qalmış əhalini vertalyotlara mindirərək, əsir götürmüş və onlara ağır işgəncələr vermişdilər. Bu hadisələr göstərir ki, ermənilər qəsdən Xocalı azərbaycanlılarını nəyin bahasına olursa olsun, məhv etməyə çalışmışdılar. (Ramezanzadeh,١٩٩٦: ٣٢.)

Erməni silahlılarının Xocalıya girdiyi gecə azından ٦١٣ nəfər dinc əhali xüsusi vəhşilik və müxtəlif cür işgəncə olunaraq öldürülmüş, hamilə qadınların qarınları yırtılmış, qadın və uşaqların da taleyi ondan yaxşı olmamışdır. Bu soyqırımda iştirak etmiş bəzi terrorçular ruhi xəstəxanalarda meyitlərdən körpü düzəltdiklərini və südəmər körpələri öldürərək qanlarını içdiklərini, meyitləri eybəcər hala saldıqlarını etiraf etmişlər. (www.xocali.az.)

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Hücumda həmçinin mayor Oqanyan Seyran Muşeqoviçin (Seyran Oqanyan hazırda Dağlıq Qarabağda ermənilərin qeyri-qanuni rejiminin "müdafiə naziri"dir) komandanlığı altında ٣٦٦-cı alayın ٢-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında ٣-cü batalyonun, ١ saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən ٥٠-dən artıq erməni zabit və praporşik iştirak etmişdir.

Ermənilər tərəfindən azərbaycanlılara qarışı digər bir soyqırım hadisəsi ١٩٩٣-cü il aprel ayının əvvəllərində Kəlbəcərə qarşı hərbi əməliyyatlar zamanı baş verdi. Bu əməliyyatlar zamanı ermənilər əməliyyatı nəzarətdə saxlamaq üçün ٦٧٢١ kHz radio tezliyindən istifadə etmişdilər. Əldə olunan dəlil-sübutlar bunu göstərir ki, Kəlbəcərə qarşı hərbi əməliyyatlara Ermənistanın Vardenis rayonunda işləmiş qərargah radiostansiyası tərəfindən "Uraqan" döyüş zonasında işləmiş baş radiostansiya göstəriş verilmişdir. Bununla da əməliyata ümumi rəhbərlik və Yerevanla əlaqə həyata keçirilmişdi. Əsir düşmüş əhali qocalardan, qadın və uşaqlardan ibarət idi. Elə ona görə də ermənilər tərəfindən Kəlbəcərdə həyata keçirilən qırğınlar və etnik təmizləmə beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin beynəlxalq jurnalistlərin gözündən uzaq qaldı. Digər tərəfdən isə ermənilərin hərb maşınının azərbaycanlıların məhv etməsi üçün ən yaxşı və ən mümkün şərait yaratmışdır. (Ibid.)

Xocalı və Kəlbəcər soyqırımları erməni silahlı qüvvələrinin Azərbaycanın dinc əhaisinə qarşı həyata keçirdikləri vəhşiliklərin və etnik təmizləmənin təkcə qısa bir hissəsidir. Buna oxşar hadisələr Azərbaycanın işğal olunmuş digər bölgələrində də baş vermişdir. Qeyd edilən hadisələr Qarabağda soyqırım cinayətinin maddi aspektlərini sübut etmək üçün çox aydın dəlillərdir. Bu cinayətlərin psixoloji aspektlərio qədər aydın olmasa da işğal olunmuş ərazilərdə mürtəkib olunan əməllərin detalları o cümlədən Xocalı və Kəlbəcərdə Azərbaycan millətinə aid etnik qrupların qəsdən öldürülməsi və hücum zamanı helikopter və izləmək üçün radio

rabitəsi kimi yeni texnologiyadan istifadə edilməsi soyqırımın psixoloji aspektlərini də aşkar edir. Digər tərəfdən Xocalı və Kəlbəcər hadisələrində heç bir erməni fərdin öldürülməməsi cinayətə mürtəkib olanların etnik, milliyyətçi və dini niyyətini açıq-aydın sübut edir.

Həqiqətdə soyqırım üçün seçilənlər azərbaycanlılar idi. Bir cinayətin soyqırım kimi tanınmasının digər bir şərti müəyyən bir millətin geniş bir hissəsinin məhv edilməsidir. Bu məsələ də qeyd edilən hadisələrdə aydın olaraq görünməkdədir. Azərbaycanlılar Qarabağ regionunun əhalisinin diqqəti çəkən cəmiyyətini təşkil edirdi. Lakin bu hadisələrdən sonra artıq Dağlıq Qarabağda bir nəfər də olsun azərbaycanlı yaşamır. (Sabanadze, ۲۰۰۲: ۲۹.)

Birləşmiş Millətlərin Soyqırım Cinayətlərinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyası və Ruanda Beynəlxalq Cəza Məhkəməsində yer almış cinayətlərdən biri olan soyqırımın, soyqırım və bir millətin qrup şəklində öldürülməsi kimi tanınması üçün məhv etmə əməlinin qabaqcadan planlaşdırılmasıdır.

Habelə, Roma Nizamnaməsində qeyd edilir ki, qətlin soyqırım kimi tanınması üçün qətl törədənin bu əməli agahlıqla etməsi şərtdir, yəni qətli törədən başa düşür ki, hansısa əməli etsə, yaxud hansısa əməli tərk etsə, bu qətlə səbəb olacaq. Bütün bu zəminələr ermənilərin mürtəkib olduğu qətllərdə öz əksini tapmışdır.

Soyqırım cinayətinin meyarlarından sayılan ciddi fiziki və ruhi zədələr vurmaq Qarabağ münaqişəsində ermənilər tərəfindən baş verməsi saysız həddə müşahidə olunmaqdadır. Hədsiz-hüdudsuz işgəncələr, qeyri-insani rəftarlar, cinsi təcavüz, cinsi kobudluq, sağlamlığı ciddi zədələmək hamısı bir çox soyqırım cinayətlərində çoxluca görünməkdədir və beynəlxalq cəza tribunallarında təsdiq edilmişdir.

### ۲,۲,۳,۷. İnsanlığa Qarşı Cinayətlər

İnsanlığa Qarşı Cinayətlər bütün dinc əhali üçün baş verə bilən cinayətlərə deyilir. Bunun mənası odur ki, insanlığa qarşı cinayətlər ölkəsi və dövləti olmayan bir fərd, ya oxşar milliyyətə malik mülki şəxsə qarşı baş tutsun. Habelə, xarici vətəndaşa qarşı baş versin. Dövlətin öz vətəndaşları olan dinc əhalisinə qarşı da baş tutması mümkün olduğu bu cinayət Qarabağ münaqişəsində çox mühümdür. Çünki bu özəllik ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri insanlıq əleyhinə cinayətlərini onların müharibə cinayətlərindən fərqləndirən yeganə mövzudur.

Qarabağ münaqişəsinin ilk günlərindən ermənilər Ermənistanda yaşayan dinc azərbaycanlılara qarşı geniş şəkildə hücumlar təşkil etdilər. Bu hücumlar çoxlu azərbaycanlının ölməsinə, həmçinin sağ qalanların Ermənistandan qovulmasına səbəb oldu.

Dinc əhalinin öldürülməsinin insanlığa qarşı cinayət olmasını xatırlamağa ehtiyac yoxdur, lakin onların yaşadıqları ölkədən qovulmasına izah vermək lazımdır. Dinc əhalinin zorla çıxarılması, ya yerdəyişilmə edilməsi, yaxud qanuni yaşadığı yerdən digər bir yerə sürgün edilməsi, başqa sözlə, öz ölkəsində yaşayan dinc əhallini digər bir ölkəyə qovmaq Beynəlxalq Cəza Məhkəməsi tərəfindən qeyri-qanuni sayılır. Ermənistan ölkəsində yaşayan

azərbaycanlılar bu ölkənin vətəndaşları sayılırdı. Onların bu ölkədən çıxarılması beynəlxalq insan hüquqları ilə də ziddir. Ermənilər öz ölkəsində yaşayan azərbaycanlıları qətlə yetirməklə və onları öz yurdlarından zorla çıxarmaqla insanlığa qarşı cinayətə mürtəkib oldular.

Bu cinayətin nəticəsində ۲۱۷ nəfər azərbaycanlı qətlə yetirildi və ۲۵۰ min nəfər Ermənistandan qovuldu. (www.human.gov.az.)

### ۳٫۲. Qarabağ konfliktinin siyasi aspektləri

Qarabağ konfliktinin hərbi-təhlükəsizllik aspektlərinin səngiməsi ilə eyni zamanda siyasiləşməsi onun həllinin uzanımasına səbəb oldu. Mühüm beynəlxalq güclərin rəqabət səhnəsində geopolitik amilin əsas rol oynaması və Cənubi Qafqazın geopolitik əhmiyyətinə diqqət etməklə Qarabağ konfliktinin siyasi özəlliklərindən söz açmaq zərurət doğurur. Bu çərçivədə sözü gedən konfliktin başlanğıcından bir tərəfdən Rusiya, Türkiyə və İran kimi regional səviyyədə oyunçuların, digər tərəfdən də transregional səviyyədə Rusiya, Amerika və sionist rejimi kimi oyunçuların maraqlarının qarşılaşdığının şahidi olduq.

### ۳٫۲٫۱. Qarabağ konfliktinin uzanımasında Rusiyanın rolu

Rusiyanın Qafqaz regionu ilə bağlı xarici siyasəti müxtəlif amillərdən qaynaqlanır. Onlardan regionun geopolitik, geostrateji əhəmiyyətinə, çoxlu etnik və dini mənsibiyyətli millətlərin burada məskunlaşmasına, böyük iqtisadi imkanlarına işarə etmək olar. Ona görə də SSRİ-nın dağılmasının ardınca rus siyasətçiləri Qafqaz regionunun Azərbaycan, Gürcüstan və Ermənistana aid olan böyük bir hissəsinin itirilməsinə baxmayaraq yaxın xarici siyasət çərçivəsində öz siyasi və hərbi nüfuzlarını bu regionda icra etməyə cəhd edirlər.

Qarabağ münaqişəsi Rusiyanın sərhədlərində etnik-dini bir böhran olaraq Qafqaz regionunun əhəmiyyətini Rusiyanın xarici siyasətində bir neçə dəfə artırır. Çünki Qarabağ münaqişəsinin təhlükəsizlik, kimllik və iqtisadi aspektlərinin Rusiyanın milli təhlükəsizliyi və milli maraqları ilə çox sıx bağlılığı var. (Əmir Əhmədyan, ۱۳۷۵: ۱۸۹.)

SSRİ-nin dağılmasından sonra Rusiyanın Qafqazdakı iqtisadi mövqeləri laxlasa da siyasi və təhlükəsizlik baxımdan hələ də bu regionin ən mühüm oyunçusu kimi qalmaqdadır. Rusiyanın qonşu ölkələrlə münasibəti bu regionda iştirakının tarixindən bəlli olduğu kimi hərbi güc üstünlüyü formasındadır. Bu da səbəb olmuşdur ki, Rusiyanın hərbi və iqtisadi gücü zəiflədikdə region ölkələri siyasi müstəqilliyə, yaxud muxtariyyətə yönəlsinlər. (Qobel: ۱۳۷۲, ۲۳٤.)

Lakin, Rusiyanın Qafqazdakı qonşuları ilə hərbi gücünün aşkar fərqinə diqqət etməklə, rusların bu regionda əsas narahatlığı xarici qüvvələrə görədir. Çünki bir sıra regional və beynəlxalq güclər Qafqazın geopolitik və geostrateji əhəmiyyətinə görə bu regiona nüfuz etməyə fürsət axtarırlar. (Səccadpur, ۱۳۷۳: ۷۷.)

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Qafqazın əhəmiyyətini Rusiya üçün önəmli edən digər bir səbəb bu regionun Rusiya üçün tranzit rolu oynamasıdır. (Haşimi, ١٣٨٤: ١٢٩.)

Qafqazın quru yolları Rusiyanı İran və Fars Körfəsi sularına birləşdirir. Dəniz yolları baxımından da Rusiyanın beynəlxalq sulara çıxış yolu Qara dəniz, Bosfor və Dardanel boğazları vasitəsilədir. Üstəlik, Qafqaz Rusiyanın mühüm və təlatümlü Qərbi Asiyaya nüfuzi üçün şah yoldur. (Haşimi, ١٣٨٤: ١٢٩.)

Təhlükəsizlik aspektlərindən əlavə Qafqaz iqtisadi baxımdan da Rusiya üçün əhəmiyyətlidir. Bununla bağlı enerji və enerjinin bu regiondan Avropaya ötürülməsi məsələsinə işarə etmək olar. Neft və qaz yataqlarının kəşfi və istismarı məqsədilə qərb ölkələrinin Azərbaycana axışması Rusiyanı iqtisadi və təhlükəsizlik problemləri ilə üzləşdirir. Başqa sözlə desək, ٢٠٠٢-ci ildə Bakı-Tiflis-Ceyhan neft kəməriniun açılışı oldu. Əgər Nabukko adlanan bu layihənin tamamlanması ilə  Azərbaycan və Türkmənistanın qazı Avropaya ötürülsə, istehlakçı Avropa bazarlarında Rusiya üçün ciddi rəqib yaranacaq. (Ghorban,١٩٩٣: ٢٠.)

İqtisadi və təhlükəsizlik kimi maddi amillərlə yanaşı etnik ideoloji və dini hərəkatların da Qafqaz vasitəsilə Rusiyaya daxil olması bu ölkəni ciddi narahat edir. Bu arada pantürkizmi qeyd olunan ideoloji hərəkadan biri kimi göstərmək olar. SSRİ-nin dağılması və beş türk dilli ölkənin Rusiyadan ayrılaraq müstəqillik əldə etmələri ilə bu hərəkat da yenidən dirçəldi. Rusiya üçün pantürkizmin digər ideoloji hərəkatlardan fərqi bu fikrin ilkin qaynaqlarının Rusiyada yaşayan tatarlar tərəfindən zühuru etməsidir. Daha açıq desək, bu ideologiya ilk dəfə Qara dəniz hövzəsində və Krım yarımadasında İsmayıl Qaspiriniski (sonralar  İsmayıl Qaspiralı kimi tanınmışdır) tərəfindən irəli sürülmüşdür və Birinci Dünya Müharibəsində Rus çarlığının qoşunlarına ağır zərbələr vurmuşdur. (Landau, ١٣٨٢: ١٣٢.)

Bu üzdən pantürkizm ideoloji hərəkatı Rusiyanın milli təhlükəsizliyini həm daxildən, həm də xaricdən təhdid edir. Sözü gedən ideologiya Rusiyanın daxilində türk soylu xalqları mərkəzə tabe olmamaq meylinin güclənməsinə səbəb olur, xarici aspektdə isə müstəqillik qazamış türk soylu xalqlar tərəfindən Rusiyanın yaxın siyasət nüfuzuna məhdudiyyətlər yaradır. Ümumiyyətlə desək, bu məsələ Rusiyanı regionda Azərbaycan Respublikası mərkəz olmaqla etnik və mədəni oxşarlıq ardınca olan Türkiyə ilə qarşılaşdırır. (Fəllah, ١٣٨٦:  ٢١٤.)

Ən mühüm dini ideoloji hərəkat kimi Qafqaz və Yaxın Şərq regionları ilə sıx əlaqəsi olan islamçılığın Rusiyanın müxtəlif xalqları arasında yayılmasını qeyd etmək olar. Nəzərə çarpacaq həddə müsəlman cəmiyyətinin Rusiyanın ərazisində məskunlaşmasına diqqət etməklə islamçı hərəkatlar onları özlərindən xəbərdar etməklə Rusiyanın milli kimliyi üçün problemlər yarada bilərlər. Rusiyanın milli təhlükəsizliyi üçün ən mühüm daxili təhdid sayılan çeçen böhranı bu mövzunun eyni nümunəsidir. (Berzinski,١٩٩٤: ٢٣٥.)

Rusiya Federasiyasının Qarabağ konflikti ilə bağlı xarici siyasəti aşağıdakı beş amildən təsirlənmişdir:

- Qafqazda sərhəd təhlükəsizliyinin qorunması;
- Güclü erməni lobbisinin Rusiyada mövcudluğu;
- Silah-sursat satmaq üçün bazar;

- ABŞ, Avropa ölkələri və sionist rejimi kimi beynəlxalq güclərin nüfuzu ilə rəqabət;
- İran və Türkiyə kimi regional güclərin nüfuzunun qarşısını almaq. (Vaizi, ١٣٨٧:١٨٨.)

### ٣،٢،٢. Qarabağ konflikti hadisələri prosesində Türkiyənin rolu və rəftarı

١٩٩١-ci ildə SSRİ-nin dağılması və Cənubi Qafqaz ölkələrinin müstəqillik qazanmasının ardınca Rusiyanın bu regionda siyasi, iqtisadi və mədəni inhisarçılığı digər regional güclər tərəfindən problemlə üzləşdi. Region oyunçularının ən önəmlisi Türkiyə idi və Azərbaycan ölkəsi ilə soy, dil və din ortaqlıqları olmasından yararlanaraq, özünü regionun mühüm oyunçusu kimi irəli verməyə cəhd edirdi. Sekülar siyasi quruluşun olması və inkişafa doğru gedən iqtisadiyyat təzə müstəqillik qazanmış ölkələri öz səmtinə çəkmək üçün şərait yaradırdı. Bundan əlavə, Türkiyənin NATO-da iştirakı, ABŞ və Avropa Birliyi ilə geniş iqtisadi və siyasi sahələrdə əməkdaşlığı təzə müstəqillik əldə edən ölkələrdə öz nüfuz dairəsini artırmaq üçün bu ölkələri dəstəkləməyə imkan verirdi. (Calali, ١٣٧٣:٢٨.)

Avropa Birliyinə qoşulmaqdan nakam qalmış Türkiyə, Qafqazda və Orta Asiyada özünə münasib mövqe tapmağa cəhdini daha da artırıb. Daha doğrusu bu ölkə Qafqazda Rusiyanın ən mühüm rəqibi sayılır. Türkiyənin Orta Asiya və Qafqazın türk dilli ölkələrinə marağı Osmanlı İmperiyasının son dövrlərinə təsadüf edir. Lakin, o zaman Osmanlı İmperiyasının Birinci Dünya Müharibəsində məğlubiyyəti səbəbinə Türkiyə ölkəsinin başçıları bir-birinin ardınca mövcud reallıqlarla barışmağa məcbur oldular və özlərinin bütün güclərini yeni Türkiyə ölkəsinin yaranmasına sərf etdilər. Qafqaz və Orta Asiya ölkələrinə qarşı yatmış maraq SSRİ-nin dağılması ilə yenidən canlandı və Türkiyəyə öz qədim arzusunu gerçəkləşdirmək üçün qızıl fürsət yaratdı. (Əbduləhəd, ١٣٧٢: ٨٤.)

Türkiyə qeyd olunan məqsədi ilə yanaşı bu regionda öz iqtisadi maraqlarını da güdür və qarşılıqlı iqtisadi münasibətlərə xüsusi təkid edir. Ona görə də Türkiyənin regionda marağı çoxölçülü sayılır və mədəni, siyasi, iqtisadi kimi aspektləri vardır. Türkiyə dövlət başçıları son iyirmi ildə bu nəticəyə çatıblar ki, bu üç aspekt arasında paralel balans yaratmaqla öz nüfuzlarını artıra bilərlər.

Türkiyə üçün Cənubi Qafqazın əhəmiyyəti aşağıdakı üç səbəbdən qaynaqlanır:

- Azərbaycan Respublikası və bu ölkədə daha çox nüfuz qazanmağa cəhd;
- Ermənistan Respublikası və türklər və ermənilərin tarixi ixtilafları;
- Gürcüstan Respublikası və bu ölkə ilə iqtisadi əməkdaşlığı genişləndirməyə cəhd.

### ٣،٢،٣.Qarabağ konfliktində Amerikanın rolu və rəftarı

Sovetlər birliyinin dağılmasının ardınca ABŞ-ın postsovet məkanında yeni müstəqillik əldə etmiş ölkələrə qarşı xarici siyasəti Rusiyanın gələcəyi barədə narahatlıq və bu ölkənin nüvə silahları anbarlarına nəzarət edə bilmək kimi amillrdən təsirləndi. Ona görə də nüvə silahları olan ölkələr ABŞ üçün xüsusi əhəmiyyət kəsb etdi və Qafqaz ölkələrinin heç birində nüvə silahı

olmadığı üçün unuduldu. Bundan əlavə, amerikalıların bu regionun xalqlarının problemlərindən məlumatları olduqca az idi və elm adamlarını çıxmaq şərtilə onun elitasının çoxu bu regionun ABŞ-ın xarici siyasəti üçün əhəmiyyətli olmasından xəbərsiz idi. (Cornell, ١٩٩٨: ٩٥.)

Xəzər dənizinin zəngin neft və qaz ehtiyatları nəhayət Amerikanın neft-qaz şirkətlərinin diqqətini özünə cəlb etdi və bu ölkənin dövlət adamlarını Qafqaz regionunun məsələləri ilə məşğul olmağa məcbur etdi. Sözü gedən şirkətlərin Azərbaycan Respublikasının neft-qaz sənayesində iştirakı İran və Rusiya üçün yeni təhlükəsizik mülahizələri yaratdı. Lakin, regiondakı hadisələr formalaşdığı zamandan ABŞ, Çeçenistan böhranına qarşı tərəfsiz siyasət seçməklə Qafqazda Rusiyanın gücünü qəbul etməsini göstərdi. Qafqaz ölkələrinin müstəqilliyindən ٢٠ il ötməsinə baxmayaraq ABŞ hələ də bu rergionda əsaslı strategiya qurmamışdır. (Ibid.)

ABŞ, Qafqazda nüfuz və iştirakını artırmaqla yanaşı Qarabağ məsələsinin həllinə dair cəhdlərini də sürətləndirmişdir. Azərbaycan Respublikasının ABŞ-a yaxınlaşması bu məsələdə təsirsiz olmamışdır. Azərbaycan Respublikasının iqtisadi inkişafa doğru hərəkəti ABŞ şirkətlərinin məqsədi ilə uyğundur və onlar bu faydalı bazarı Avropa rəqiblərinə vermək istəmirlər. (Murtəzəviyan və Məliki, ١٣٧٥: ١١.)

Bununla belə, ABŞ-ın Ermənistanla da münasibətləri diqqəti çəkəndir və ABŞ, Qarabağ məsələsində tərəfsiz mövqe tutduğunu göstərməyə çalışır. Həmçinin, ABŞ və Təhlükəsizlik Şurasının iştirakçısı olan ölkələr regiona sülhməramlı qüvvələr göndərmək niyyətində deyillər. Çünki bu hərəkət Vaşinqton-Moskva arasında gərginliyi artıra və onlar üçün ağır xərclərə başa gələ bilər.

Qarabağın Rusiyanın təhlükəsizlik hövzəsi sayılan Qafqazda yerləşməsi, qərb ölkələrini, o cümlədən ABŞ-ı xüsusi mülahizələr etməyə məcbur edir. Ona görə də ABŞ, Qarabağ məsələsinə birbaşa qarışmağın əvəzinə dolayı yolla müdaxilə etməyə üstünlük verir. Bu proqram çərçivəsində Türkiyə vasitəsindən istifadə edir. Çünki belə olduqda beynəlxalq aləmdə ABŞ-ın tərəfsizliyinə zərər dəymir, eyni halda Rusiya və İranın nüfuzunun qarşısını da almış olur. (Əmir Əhmədiyan, ١٣٧٣: ١٣٣.)

Lakin, Qarabağ konfliktində Türkiyə həmişə Azərbaycan Respublikasının dəstəkləyicisi hesab olduğundan vasitəçilik missiyasını təsirli surətdə yerinə yetirə bilmir. Həmçinin, ABŞ-ın regionda Türkiyəni dəstəkləməsi Ermənistanın ABŞ-dan soyumasına, Rusiya və İrana yaxınlaşmasına səbəb olmuşdur. Bu da ABŞ-ın xoşuna gəlmir. Ona görə də ABŞ, Qarabağ məsələsində iki yol ayrıcında qalıb və digər böhranlardan fərqli olaraq sözü gedən məsələdə passiv rol oynayır. (İsanijad, ١٣٩١: ٤٨.)

Ümumi olaraq demək olar ki, ABŞ-ın Qarabağ məsələsinə yanaşması daha çox bu ölkənin Rusiya ilə münasibətlərindən təsirlənir. ABŞ-ın Rusiyaya yaxınlaşması qəflətə, uzaqlaşması isə Qarabağ konfliktinin həllinin sürətlənməsinə səbəb olacaq.

### ٣,٢,٤. Qarabağ konfliktində Fransanın rolu və rəftarı

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

Fransanın siyasi və iqtisadi yönümdən Qafqaza baxışı bu regionda olan digər təsirli qərb ölkələrinin yanaşmasından fərqlidir. Fransa müstəqil surətdə rol oynamağa çalışır. Fransa və Ermənistan arasında yaxşı və qarşılıqlı münasibətlər mövcuddur. Erməni azlıqlarının Fransanın dövlətində və parlamentində yer tutması bu münasibətlərin bərkiməsinə səbəb olmuşdur. Bununla yanaşı Fransa, Azərbaycan Respublikasının bir neçə neft konsorsiumunda iştirak edir. Xəzər dənizində neft və qaz ehtiyatları və onun Avropaya köçürülməsi mövzusu Fransa dövlətinin gələcək siyasətləri üçün çox əhəmiyyət daşıyır. Ona görə də Fransa Qafqaz hadisələrində mühüm rol oynamağa cəhd edir.

Fransa, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Qrupunda həmsədrlərdən biri olmaqla regionda nüfuz qazanmağa maraqlı olduğunu göstərdi və hal-hazırda Minsk Qrupunun ən fəal və əsas iştirakçılarından biridir. Fransa dövləti ötən ١٠ ildə qarşıdurma tərəfləri, həmçinin Rusiya, Türkiyə və İran kimi region ölkələri ilə danşıqlar aparmaq üçün nümayəndələr göndərməklə Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə həlli üçün aktiv rol ifa etmişdir. Sabiq prezident Jak Şirakın dövründə Fransanın vasitəçilik rolu Parisdə ən yüksək həddə çatmışdı. ٢٠٠١-ci il yanvarın ٢٥-də Azərbaycan və Ermənistan ölkələrinin Avropa Şurasına[٣٠] üzv olmalarından bir gün sonra Jak Şirakın iştirakı ilə iki ölkə başçılarının birbaşa görüşü baş tutdu. Müzakirələrin bu turu Heydər Əliyev və Robert Köçəryanın iki il müddətində ١٥-ci müzakirəsi olmuşdur. Lakin, bu müzakirə də ondan öncəki müzakirələr kimi hiss olunan bir nəticə əldə olunmadan başa çatdı. (Vaizi, ١٣٨٨: ١٨٨.)

"Fransa Erməni Təşkilatları Şurası"nın roluna diqqət etməklə Fransua Olland prezident seçkilərindəki qələbəsindən sonra erməniləri hərtərəfli dəstəkləyəcəyinə söz verdi, hətta Ankara-Paris gərginliyi yaranması təhlükəsi də buna mane ola bilmədi.

٢٠١٢-ci ilin oktyabrında Qarabağ konfliktinin dinc yolla çözümü üçün Fransanın vasitəçiliyi ilə Parisdə İlham Əliyev, Serj Sarkisyan və Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə görüş baş tutdu. Bu görüşün yekin bəyanatında da digər qabaqkı görüşlərin yekununda verilən bəyanatlar kimi Qarabağ məsələsinin ٢٠ ildən artıqdır ki, həll olunmaması, humanitar münasibətlərin yaranmasının lüzmu, atəşkəsin pozulmasına mane ola biləcək mexanizmin hazırlanması kimi həmişəki ifadələrdən istifadə olundu.

### ٣،٢،٥. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Qrupunun vasitəçiliyi

١٩٩٢-ci il yanvarın ٣٠ və ٣١-də Azərbaycan və Ermənistan ölkələri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT)[٣١] Praqoda keçirilən ٢-ci iclasında bu şuraya üzvlüyə qəbul edildilər. Bu iclasda qərara alındı ki, Qababağ münaqişəsinin durumu, atəşkəsin mümkünlüyü, müşahidəçi qrupların orada yerləşməsi məsələlərini araşdırmaq məqsədilə münaqişə bölgələrinə heyət ezam edilsin. Göndərilmiş heyət ١٩٩٢-ci il ١٢-١٨ fevralda regionda görüşlər

[٣٠]. Council of Europe.
[٣١]. CSCE.

keçirdi. Təşkilatın prinsiplərinə uyğun olaraq Dağlıq Qarabağ münaqişəsinin yekun həlli üçün ATƏT-in xarici işlər nazirlərinin ١٩٩٢-ci ilin martın ٢٤-də keçirilən iclasında Belarusun paytaxtı Minsk şəhərində konfrans təşkil edilməsi qərara alındı. Rusiya, ABŞ, Türkiyə, Finlandiya, İtaliya, İsveç, Çexiya, Macarıstan və Belarus bu qrupa ev sahibliyi etmək üçün seçildilər. ١٩٩٢-ci il mayın ١-də konfransın reallaşması üçün Minsk qrupu yaradıldı, konfransa hazırlıq məqsədilə italiyalı Mario Rafaelliyə[٣٢] mandat verildi. Habelə, hərbi ixtisaslı bir qrup yaradıldı və o qrupa tapşırıldı ki, sülhə müşahidəçi heyətin münaqiişə bölgələrində necə yerləşəcəyini araşdırsın.

Minsk Qrupunun ən əhəmiyyətli fəaliyyətlərini üç mərhələdə qruplaşdırmaq olar:

Birinci mərhələ: Atəşkəsin yaranması üçün Minsk qrupunun vasitəçəliyi.

İkinci mərhələ: Minsk Qrupunun Rusiya ilə birgə vasitəçiliyi.

Üçüncü mərhələ: Sülh razılaşması əldə etmək üçün Minsk Qrupunun vasitəçiliyi.

## ٤. Nəticə

Qarabağ münaqişəsi, Rusiyanın Qafqaza hakimiyyəti və onun nəticəsi olaraq hələ də davam etməkdədir. Bu münaqişə zati və vücubi əhəmiyyəti ilə yanaşı geopolitik tələblərinə görə bir düyün olaraq qalmaqdadır. Sözü gedən münaqişədə Azərbaycan Respublikasının ərazi bütövlüyü, vətəndaşlarının canı və əmlakına qarşı hörmətsizlik olunmuşdur. Qarabağ konfliktinin hüquqi və siyasi aspektlərinə diqqət etməklə münaqişədəki bu iki aspekitin proseslərinin bir-birinə zidd olduğunu başa düşmək olar. Başqa sözlə, münaqişənin hüquqi aspektini təhlil etməklə heç bir şişirtməyə yol vermədən demək olar ki, bu münaqişə bəşər tarixinin ən acılı bir səhnələrini yaşamışdır. Ermənilərin Qarabağda törətdikləri cinayət və hərəkətlər bütün beynəlxalq insan hüquqlarının qayda-qanunları ilə ziddir.

Münaqişənin siyasi aspektlərinin təhlilində isə belə nəticəyə gəlmək olar ki, bu böhranın geopolitik tələblərinə uyğun olaraq münaqişənin prosesinə aidiyyatı olan ölkələr, habelə səlahiyyətli beynəlxalq və regional təşkilatlar faktiki olaraq sükut ediblər. Ona görə də Qafqaz Rusiyanın xəlvət həyatı kimi tanınır və bu regionda son sözü Rusiya deyir. Bundan əlavə, Rusiyanın ermənilərə qarşı xüsusi bağlılığı və marağı var.

Cəsarətlə demək olar ki, Qarabağ münaqişəsinin hüquqi və siyasi aspektləri arasında heç bir uyğunluq yoxdur. Münaqişə hüquqi və siyasi cəhətdən tamamilə ayrı-ayrı proses keçmişdir və hüquqi aspektdə beynəlxalq ümumi hüquqlara, humanitar hüquqlara, daxili və beynəlxalq konfliktlərə hakim proseslərə tabe olub, məcburi qaldırılmış bir münaqişədir. Bu münaqişədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü pozulmuş, ərazisinə təcavüz edilmiş və çoxlu beynəlxalq cinayətlərə yol verilmişdir. Münaqişədə ermənilərin törətdiyi ən çox tanınan beynəlxalq cinayətlər kimi Xocalı və Kəlbəcər soyqırımlarını nümunə göstərmək olar.

---

٣٢. Mario Rafaelli, İtaliyanın tanınmış diplomatı və dövlət sülh fəalı.

آران نیوز
آخرین اخبار، تحلیل ها و مقالات در خصوص منطقه قفقاز

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Digər tərəfdən bu münaqişənin siyasi aspektində tərəfsiz, yaxud qərəzli surətdə ermənilərin dəstəklənməsinin şahidi oluruq. Münaqişəyə aidiyyatı olan ölkələr və beynəlxalq təşkilatlar həmişə ya açıq-aşkar ermənilərin mövqelərini dəstəkləyiblər, ya da sukut etməklə ermənilərin cinayətlərini təsdiq və himayə ediblər. Münaqişəyə aidiyyatı olan beynəlxalq təşkilatlar və ölkələrin siyasi rəsmiləri təcavüzkar və cinayətkar tərəfin adını çəkmədən köçkünlərin durumu barədə və Qarabağda baş verən cinayət və soyqırım barədə ən yaxşı şəkildə narahatlıqlarını bildiriblər.

**Qaynaqlar:**

**A). Farsca qaynaqlar:**

**Kitablar:**

Əmir Əhmədyan, Bəhram (۱۳۸۱); "Coğrafiyayi kamili Qəfqaz", Tehran, Sazimani Coğrafiyayi Vəzarəti Difa və Poştibani.

Əmir Əhmədyan, Bəhram (۱۳۸۲); "Keşvərşunasi Azərbaycan", Tehran, Sazimani Coğrafiyayi Vəzarəti Difa və Poştibani.

Bəyat, Kave (۱۳۸۲); "Bohrani Naqorni Karabax", Tehran, Pərvin.

Hafizniya, Məhəmmədrza (۱۳۸۹); "Rəvişi təhqiq dər ulumi insani (ba təcdid nəzər və izafat)", Tehran, Simət.

Zare Şahmərsi, Pərviz (۱۳۸۹); "Qarabağname, əz ədvari kuhən ta doreyi muasir", Tehran, Şiraze.

Şeyx Əttar, Əlirza (۱۳۷۱);"Rişehayi rəftari siyasi dər Asiyayi Mərkəzi və Qəfqaz", Tehran, Muəssiseyi Çap və İntişarat Vəzarəti Umuri Xarice.

Behrad, Əbduləhəd (۱۳۷۲); "Qərəbağ dər çeşməndazi tarix", Təbriz, Ərk.

Landau, Cakob (۱۳۸۲); "Panturkizm: yek qərn dər təkapuyi ilhaqgəri", Mutərcim: Əmir, Əhmədi; Tehran, Nəşri Ney, çapi əvvəl.

Vaizi, Məhmud (۱۳۸۷); "Jeopolitiki bohran dər Asiyayi Mərkəzi və Qəfqaz (bonyadha və bazigəran)", Tehran, Dəftəri Mutaliati Siyasi və Beynəlmiləli.

Vaizi, Məhmud (۱۳۸۸); "Miyancigəri dər Asiyayi Mərkəzi və Qəfqaz: təcrobeyi Cumhuriyi İslami İran", Tehran, Dəftəri Mutaliati Siyasi və Beynəlmiləli.

Haşimi, Qulamrza (۱۳۸٤); "Əmniyyət dər Qəfqazi Cunubi", Tehran, Dəftəri Mutaliati Siyasi və Beynəlmiləli.

**Məqalələr:**

Aydin, Mustafa (١٣٨٠); "Rişehayi daxiliyi bisubati dər Asiyayi Mərkəzi və Qəfqaz", Mutaliati Asiyayi Mərkəzi və Qəfqaz, sali dəhom, doreyi sevvom, şomareyi ٣٦, zimistan.

Əmir Əhmədyan, Bəhram (١٣٧٣); "Qərəbağ əz dirbaz ta konun", Fəslnameyi Mutaliati Asiyayi Mərkəzi və Qəfqaz, sali dovvom, şomareyi ٤, bəhar.

Cəlali, Məhəmmədrza (١٣٧٣); "Qəfqaz və Asiyayi Mərkəzi: vurud be səhne və tərkibbəndiyi mucəddədi fəzayi geostratejik", Fəslnameyi Mutaliati Asiyayi Mərkəzi və Qəfqaz, sali sevvom, doreyi dovvom, şomareyi ٦, payiz.

Səccadpur, Seyid Kazim (١٣٧٣); "Rusiye və Qəfqaz: iqtisad və mulahizati əmniyyəti", Fəslnameyi Mutaliati Asiyayi Mərkəzi və Qəfqaz, şomareyi ٨, zimistan, Tehran.

İsanijad, Seyid Məhəmməd (١٣٨٩); "Şenaxti coğrafiyayi və təhlili tarixi və mərzi siyasi Cumhuriyi İslami İran ba dovəli Qəfqaz", Fəslnameyi Mutaliati Qəfqaz, sali əvvəl, şomareyi dovvom, bəhar.

İsanijad, Seyid Məhəmməd və Yəzdanpənah, Məhəmməd (١٣٨٩); "Mutalieyi təsir və təsiriyi diplomasiyi torki dər məntəqeyi Qəfqaz",Fəslnameyi təxəssusi, pejohişi Mərkəzi Fərhəngiyi Qəfqaz, sali əvvəl, şomareyi ٤, Ərdəbil, zimistan.

Fəllah, Rəhmətullah (١٣٨٦); "Təqaboli ulquyi fərhəngi Turkiye və İran dər Asiyayi Mərkəzi və Qəfqaz", Tehran, Fəslnameyi Mutaliatiyi Rahbordi Cəhani İslam, şomareyi ٣٤.

Goel, Pavel (١٣٧٢); "Rusiye və həmsayeganeş", tərcume: Qasim, Məliki, Fəslnameyi Mutaliati Asiyayi Mərkəzi və Qəfqaz, sali dovvom, şomareyi ١, Tehran.

**Diplom işləri**

İsanijad, Seyid Məhəmməd (١٣٩١); "Bərrəsiyi nəqşi Sazimani Miləli Mottəhid dər rəvəndi təhəvvolati monaqişeyi Naqornu Qərəbağ", payannameyi karşonasiyi ərşədi coğrafiyayi siyasi, Danişkədeyi Coğrafiyayi Danişgahi Tehran.

**B). Latınca qaynaqlar:**

Admission of new Members to the League of Nations.Armenia. Assembly Document ٢٠٩, pp. ٢-٣; Assembly ٢٥١.

Anonymous (١٩٦٠) Documents of foreign policy of the USSR, volume IV, Moscow: Gospolitizdat, p. ٤٢٣.

Azerbaijan. Seven Years of Conflict in Nagorno-Karabakh (١٩٩٤) Helsinki: Human Rights Watch, pp. ٩٠-١١٨.

Brezinski, zibigniew (١٩٩٤) world order of the future, new York, dawn Karachi.

Commentary on IV Geneva Convention (١٩٥٨), Geneva: ICRC, p. ٢٠-٢١.

Commentary on the Additional Protocols of ١٩٧٧, Geneva: ICRC, ١٩٨٧, p. ١٣٤٥.

Aran Agentliyi
www.arannews.ir
Xəbər,məqalə və təhlil Qafqaz haqqında

Cornell, Svante (١٩٩٨) Turkey & The Conflict in Nagorno Karabakh: A Delicate Balance; Middle Eastern Studies, vol.٣٤, No.١, January ١٩٩٨, Published by FRANK CASS, LONDON, pp.٥١-٧٢.

Gasser, H. P. (١٩٨٣) Internationalized Non-International Armed Conflicts: Case Studies of Afghanistan, Kampuchea, and Lebanon, American University Law Review, Vol. ٣٣, Washington, D.C. pp.١٤٥ et seq.

Gasser, H. P. (١٩٩٣) International Humanitarian Law, An Introduction, Geneva: Henry Dunant Institute, p. ٧.

Ghorban, Narsi (١٩٩٣) The Role of the Multinational Companies in the Development of Oil and Gas Resources in Central Asia and Caucasus, The Iranian Journal of International Relations, Vol,٥ No.١ Spring ١٩٩٣.

Henckaerts J. M. and Doswald-Beck, L. (٢٠٠٥) Customary International Humanitarian Law. Volume I: Rules, Cambridge: Cambridge University Press, pp. ١٦١-١٦٥.

Hermann, Charles (١٩٦٩) International Crisis as sinuational variable, New York: The Free Press, pp.٤٠٩-٤٢١.

ICRC Annual Report (٢٠٠٦) Azerbaijan, Geneva: ICRC, p. ٢٤١.

Lund, Michael (٢٠٠١) The Conflict Prevention Capacities of the United States Government in the South Caucasus, USA: Fewer Eastwest Institute, http://www.fewer.org/research/STUDUS. Pdf (١٥ August ٢٠٠١), p. ٤.

Malcolm Edvans (٢٠٠٣) Blackstone’s International Law Documents, Oxford: Oxford University Press, ٦th ed, pp. ١-٧.

Malcolm N. Shaw (١٩٧٧) The Heritage of States:The Principle of Uti Possidetis Juris Today, in ٧٧th Vol. of The British Yearbook of International Law, Oxford: Clarendon Press, pp.٧٥-١٥٤, at p. ٩٠.

Musayev, T (٢٠٠٧) Legal Aspects of Nagorno-Karabakh Conflict, in: www.mfa.gov.az,visited ١٢ June ٢٠٠٧, PDF Format.

Oliker, Olga & Szayna, Thomas (٢٠٠٣) Fault Lines of Conflict in Central Asia & the South Caucasus; NewYork: RAND Institute press, p.٨٠.

Ramezanzadeh, Abdollah (١٩٩٦) Iran`s Role as Mediator in the Nagorno – Karabakh Cisis, Comtested Borders in the Caucasus, Bruno Coppetiers, ed. Brussels: VUB Press, p. ٣٢.

Sabanadze, Natalie (٢٠٠٢) International Involvment in the South Caucasus, European Center for Minority Issues, Working Paper, No. ١٥, Feb. ٢٠٠٢, p. ٢٥.

Security Council Resolution ٨٢٢ (١٩٩٣), ٣٧, at ٧٠;

Aran Agentliyi
www.arannews.ir
Xəbər.məqalə və təhlil Qafqaz haqqında

Solf, Scot (١٩٥٣) The Status of Combatants in Non-International Armed Conflicts Under Domestic Law and Transnational Practice, American University Law Review, Vol. ٣٣, Washington, D.C, p. ٥٩.

Swietochowski, T. (١٩٩٥) Russia and Azerbaijan: A Borderland in Transition, New York: Columbia University Press, pp ٧٥-٧٦.

Http://human.gov.az. Visited at: ٢٠١١/١٢/٠٥

Http://xocali.az. Visited at: ٢٠١٢/٠٣/١٤.